Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

9 MAY 2020-ci il

№ 75 (4206)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QOŞULMAMA HƏRƏKATININ VİDEOZİRVƏSİ İLƏ AZƏRBAYCAN DÜNYANI BİRLƏŞDİRDİ - İDEYA ARTIQ DÜNYA RƏYİNƏ ÇEVRİLMƏLİDİR...

səh. 6

Erməni faşizminə Azərbaycandan növbəti zərbə - Prezident Əliyev bir daha Njde məsələsinə qayıtdı, həm də Rusiya mətbuatına müsahibəsində...

səh. 7

Qoşulmama Hərəkatı daxilində dövlətlərarası ziddiyyətlərin həllində Azərbaycanın vasitəçilik missiyası - Prezident yeni fakt açdı...

səh. 4

Prezidentin yeni qərarı da koronavirusla mübarizə hədəflərinə uyğun oldu - "Sərt cəzalar"...

səh. 5

Prezident Əliyev pandemiya ilə mübarizəni rəmzləşdirən dünya fotomüsabiqə iştirakçılarına əla istiqamət göstərdi...

səh. 3

Azərbaycan dünya miqyasında Ermənistanın dayaqlarını tam sarsıdır...

səh. 9

Azərbaycanın bank sektoru tam sağlamlaşdırılır

səh. 15




səh. 4

## Koronavirusla mübarizə dövründə 10 ölkə kömək üçün Azərbaycana müraciət etdi - Prezidentin xəstəxana açılışındakı çıxışında fakt açıldı...



Ermənistanın riyakar dövlət siyasətinin iç üzü yenidən nümayiş edildi - Qələbənin 75 illiyi hara, faşistə heykəl qoymaq hara...

səh. 10

Qələbənin 75 illiyi ərəfəsində Ermənistana «tərs şillə» - bu ölkənin qəhrəmanları yoxdur ki, faşistə "məhəbbət" edirlər...

səh. 8



İcra başçısından çıxan «sandıq-sandıq» pullar - digər başçılar belə pulları qorumaq üçün hansı ehtiyat tədbirlərinə əl ata bilər...

səh. 10

səh. 3

Beynəlxalq təşkilatlarla bağlı Rusiya KİV-nin İlham Əliyevin mövqeyinə marağının əsasları...



səh. 5

Əgər Prezident özü də şəxsən karantin qaydalarına ciddi əməl edirsə - məsuliyyətsiz vətəndaşlara güzəştin məntiqsizliyi...



səh. 12

Azərbaycanın virusla mübarizədə hazırkı mövqeyinə dəqiq qiymət verildi - "Biz birinci mərhələdə qalib gəlmişik"...



səh. 13

Dünyada misilsiz - Azərbaycanda müharibə veteranlarına bu il 900 dollar mükafat veriləcək...



səh. 13

Koronavirusla mübarizə dövründə Azərbaycanın sosial məzmunlu növbəti addımı - qorunan əmanətlərin faizi 12-yə qaldırıldı...



# Vatikanın saytı 2016-cı ildə Bakıda Heydər Məscidindəki hadisədən yazdı...


BOLLETTINO
SALA STAMPA DELLA SANTA SEDE
Home > Bollettino > 2020 > 05 > 01

Messaggio del Pontificio Consiglio per il Dialogo Interreligioso ai Musulmani per il Mese del Ramadan e 'Id al-Fitr 1441 H. / 2020 A.D., 01.05.2020

[B0257]

Testo in lingua inglese
Traduzione in lingua francese
Traduzione in lingua italiana
Traduzione in lingua araba

In occasione del mese del Ramadan – iniziato quest'anno il 23 aprile – e per la festa di *'Id al-Fitr* 1441 H. / 2020 A.D., il Pontificio Consiglio per il Dialogo Interreligioso ha inviato ai Musulmani del mondo intero un messaggio augurale dal titolo: *Cristiani e musulmani: Insieme per proteggere i luoghi di culto.*

Questo il testo del Messaggio, a firma del Presidente del Pontificio Consiglio, Em.mo Card. Miguel Ángel Ayuso Guixot, M.C.C.J, e del Segretario del medesimo Pontificio Consiglio, Rev.do Mons. Indunil Kodithuwakku Janakaratne Kankanamalage:

Testo in lingua inglese

***Christians and Muslims: Protecting together the places of worship***

**Mayın 1-də Müqəddəs Taxt-Tacın rəsmi internet səhifəsində Dinlərarası Dialoq üzrə Pontifik Şurasının prezidenti Kardinal Miguel Angel Ayuso Guiksotun Ramazan ayı münasibətilə dünya müsəlmanlarına ünvanlanmış müraciəti yerləşdirilib.**

Baki-xeber.com xəbər verir ki, ingilis, fransız, italyan və ərəb dillərində dərc olunmuş müraciətdə Roma Papası Fransiskin 2016-cı il oktyabrın 2-də Bakıya səfəri zamanı Heydər Məscidini ziyarət edərkən etdiyi çıxışa aşağıdakı istinad yer alır: "Bu baxımdan, Roma Papası Fransiskin 2 oktyabr 2016-cı il tarixində Bakıdakı (Azərbaycan) Heydər Məscidini ziyarət edərkən söylədiklərini xatırlatmağa dəyər: "Bu dua yerində qardaşlıq, dostluq şəraitində keçirilən görüşümüz dinlərin məsuliyyət hissi ilə davranan insanlar arasındakı münasibətlərə, onların xoş məramına əsaslanaraq birlikdə qura biləcəyi harmoniyaya güclü bir işarədir".

## Bakı metrosu mayın 9-dan fəaliyyətini bərpa edir

**Yeni növ koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar Azərbaycan Respublikası ərazisində tətbiq olunan xüsusi karantin rejiminin mərhələli yumşalma planına və mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq "Bakı Metropoliteni"nin fəaliyyətinin 9 may 2020-ci il saat 06.00-dan etibarən bərpa edilməsinə dair qərar verilib.**

Bu barədə baki-xeber.com Nazirlər Kabineti yanında Operativ Qərargaha istinadən xəbər verir.

"Bakı Metropoliteni" pandemiya dövründə fəaliyyətini Operativ Qərargahın tələb və qaydalarına, o cümlədən "İctimai nəqliyyatda koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstəriş"ə uyğun olaraq həyata keçirməlidir. Eyni zamanda, metro stansiyalarına yalnız yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayışla tərk edən sərnişinlərin girişinə icazə verilməlidir.

Sərnişinlərin metro stansiyası ərazisində, eləcə də qatarlarda qoruyucu maskalardan istifadəsi və sosial məsafəni gözləməsi mütləqdir.

## Azərbaycanda müvəqqəti vergi rejimi tətbiq ediləcək - bu nə deməkdir...

**Azərbaycanda koronavirus pandemiyasından zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə nəzərdə tutulmuş vergi güzəştləri paketi ilə bağlı məsələ Milli Məclisin mayın 8-də keçirilən iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılıb.**

"Trend"in məlumatına görə, bununla bağlı Vergi Məcəlləsinə "Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi" adlı yeni on səkkizinci fəsil əlavə edilir.

Dəyişikliyə görə, pandemiyanın bilavasitə təsir etdiyi, sənəddə nəzərdə tutulan fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə, əldə edilən mənfəətin (gəlirin) 75 faizi miqdarında vergi güzəştlərinin verilməsi təklif olunur.

Bundan başqa, sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti və sərnişin daşımaları fəaliyyəti həyata keçirən vergi ödəyicilərinə yuxarıda qeyd edilən əmlak və torpaq vergiləri üzrə güzəştlərlə yanaşı, sadələşdirilmiş vergi məbləği üzrə 50 faiz güzəştin verilməsi nəzərdə tutulur.

Göstərilənlərlə yanaşı, pandemiyanın mənfi təsir etdiyi yuxarıda qeyd edilən iqtisadi fəaliyyət sahələri üzrə bir sıra digər güzəştlərin də verilməsi planlaşdırılır. Belə ki, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcəsinin 14 faizdən 7 faizə endirilməsi, 1 il müddətinə cari vergi ödəmələrindən və cari vergi ödəmələri ilə bağlı arayışların verilməsindən azad edilməsi, 2019-cu il üçün son verginin ödənilməsi müddətinin 1 sentyabr 2020-ci il tarixinədək uzadılması, mikro sahibkarlıq subyekti olmayan vergi ödəyicilərinin əvvəlki il üzrə hesablanmış mənfəət (gəlir) və əmlak vergilərinin cari ilin 1 sentyabr tarixinədək uzadılması, ödənilməmiş vergi, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanmasının 2020-ci ilin 1 aprel tarixindən 2021-ci ilin 1 yanvar tarixinədək təxirə salınması da bu güzəştlərə daxildir.

Bütün sahibkarlıq subyektlərini əhatə edən vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyət nəzərə alınmadan gəlirdən çıxılması, əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin ƏDV-dən müddətli azad edilməsi kimi vergi güzəştlərinin verilməsi də bu güzəştlər sırasındadır. Vergi güzəştləri paketinin ümumi dəyəri 114 milyon manata yaxındır.

Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq qəbul edilib.

# Azərbaycanda daha 75 nəfərdə koronavirus aşkarlandı, 25 nəfər sağaldı

**Azərbaycanda 75 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a daxil olan məlumata görə, hazırkı dövrədək ölkəmizdə 2279 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1576 nəfər



müalicə olunaraq sağalıb, 28 nəfər vəfat edib, 675 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Həmin şəxslərdən 28 nəfərin vəziyyəti ağır, 39 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

**Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 181530 test aparılıb.**

# Azərbaycanda imtahanların keçirilmə qaydası açıqlandı

**"İmtahanlar zamanı koronavirus infeksiyasının (COVİD-19) profilaktikasina dair" metodiki göstərişlər açıqlanıb.**

"Trend"in məlumatına görə, sənəddə qeyd edilir ki, imtahanlara onlayn qeydiyyatı, imtahan mərkəzlərində sanitar qovşaqlar, mexaniki və təbii havalandırma, işıqlandırma və su-kanalizasiya sistemlərinin təmizlik və dezinfeksiyasını, işçi heyətin şəxsi gigiyenası ilə bağlı ümumi qaydalara əməl olunması, imtahan təyin olunan tarixdən iki gün əvvəl otaqların dezinfeksiya edilməsi və imtahan təyin olunan günədək həmin otağa/zala girişin qadağan edilməsi, imtahan başlamazdan əvvəl və imtahan müddətində otağın havalandırılması, otaqlarda/zallarda, dəhlizlərdə əl dezinfektantları üçün dispenserlərin quraşdırılması, səhhəti ilə bağlı müəssisəyə girişi məhdudlaşdırılan işçiləri əvəz edəcək ehtiyat heyətin əvvəlcədən hazırlanması, imtahan nəzarətçiləri qismində yaşı 65-dən yuxarı və xroni-



ki xəstəliyi olmayan şəxslərin təyin olunması təmin edilməlidir.

Şəhərlərarası gediş-gəliş məhdudiyyətini nəzərə alaraq, yerlərdə imtahanların təşkil edilməsi, imtahan mərkəzlərinin tibbi maskalarla təchizatı, hər bir şəxsin imtahan mərkəzində tibbi maskadan istifadə, imtahan mərkəzlərində fərdi qoruyucu vasitələrinin atılması üçün müvafiq tullantı qablarının yerləşdirilməsi, iştirakçıları müşayiət edənlərin imtahan mərkəzinin ərazisində toplanmamaları, imtahan mərkəzlərinin girişlərində termometriyanın icra edilməsi təmin edilməlidir.

Sənəddə imtahanda nəzarətçinin sənədlərə əllə toxunmaması, hər iştirakçının arasında sosial məsafənin (2 m) qorunması, imtahan ləvazimatlarının (qələm, karandaş və s.) ortaq istifadə edilməməsi, iştirakçıların səhhətində imtahan zamanı yaranan problemləri (COVİD-19-a spesifik olan simptomlar - qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) bildirmələri və onların xüsusi ayrılmış otaqda izolyasiya edilmələri, 103 TTTY çağırılması, azyaşlını müşayiət edənin bu barədə məlumatlandırılması kimi metodiki göstərişlər də yer alıb.

İş zamanı özündə COVID-19-a spesifik olan əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 TTTY müraciət edilməlidir.

İşə gəlməzdən əvvəl özündə COVID-19-a spesifik olan əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) rəhbərinə xəbər verərək evdə izolyasiya olunmalıdır və tibbi xidmətin təmin olunması məqsədi ilə 103 TTTY müraciət etməlidir. Xəstəlik əlaməti olan işçinin iş yeri dezinfeksiya edilməlidir. Həmin işçidə laborator üsul ilə COVID-19 təsdiqləndiyi halda, onunla sıx təmasda olan əməkdaşlardan test götürülməli və cavabları aşkarlanana qədər onlar evdə izolyasiya olunmalıdır.

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana geniş eksklüziv müsahibə verib. Müsahibədə ölkə başçısı bir sıra məqamlara aydınlıq gətirib.**

*"...o cür simvollar bizim mentalitetə və dəyərlərimizə uyğundur"*

# Prezident Əliyev pandemiya ilə mübarizəni rəmzləşdirən dünya fotomüsabiqə iştirakçılarına əla istiqamət göstərdi...

***Məhərrəm Zülfüqarlı:** "Hesab edirəm ki, Prezidentin bununla bağlı izahatı çox dolğundur"*



Bununla belə, M.Qusman TASS agentliyinin pandemiya üzərində qələbənin rəmzi olacaq gələcək fotoqrafiya üçün ümumdünya müsabiqəsi elan etdiyini deyib: "Sizin fikrinizcə, həmin fotoqrafiyada nə ola bilərdi?".

Sözügedən suala Prezidentin cavabı belə olub: "Mənim fikrimcə, bu müsabiqə təkcə rəssamların yox, hamının böyük marağına səbəb olacaq. Ona görə ki, bu gün bu mövzu hər kəsi narahat edir və hər kəsi bu xəstəliyə qalib gəlmək istəyi, öz yaxınlarını xəstəliyin ağır fəsadlarından qorumaq istəyi birləşdirir. Buna görə düşünürəm ki, həmin fotoqrafiya və ya simvol bu cür birləşdirici xarakter daşımalıdır. Bir də, şübhəsiz, dünya pandemiyaya qalib gələndə bunun rəmzi insan, onun zəkası olmalıdır. Ona görə ki, vaksin icad ediləndə insanın zəkası bu xəstəliyə qalib gələcək. İnsanın iradəsi. Ona görə ki, çətin dövrdə çox məsələləri məhz iradə qüvvəsi həll edir. Əlbəttə, mərhəmət hissi də. Ona görə ki, vəziyyətin çox mürəkkəb olmasına, çoxsaylı insan tələfatına baxmayaraq, mənim fikrimcə, ictimai şüurda mərhəmət səviyyəsi xeyli yüksəlib, insanlar anlayırlar ki, təbiətin və Allahın qarşısında hamı bərabərdir, hər kəs öz yaxınları qarşısında məsuliyyət göstərməli və özünü ləyaqətlə aparmalıdır. Buna görə mövzular palitrası bir qədər geniş ola bilər, lakin əminəm ki, bu müsabiqə bir simvolika ilə kifayətlənməyəcək. Düşünürəm ki, burada ən yaxşı duyğular, ən yaxşı arzular, insanın və insanlığın ən yaxşı keyfiyyətləri cəmləşməlidir".

Bütövlükdə, fotosimvol barədə Prezidentin izahı nə dərəcədə əhatəlidir?

Məsələyə münasibət bildirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, bununla bağlı ölkə başçısının fikirləri kifayət qədər dolğun və əhatəli oldu: "Məsələ ondadır ki, pandemiya problemi ortaya çıxandan sonra Prezident İlham Əliyev əsasən insan amilinə önəm verib. İnsanlara qayğı göstərmək, sosial yardımlar əsas siyasət olub. Ölkə rəhbərliyi bütün imkanları işə salaraq insanları qorumağa çalışır. Çünki bu bizim dövlət siyasətidir. Bununla yanaşı, o cür simvollar bizim mentalitetə və dəyərlərimizə uyğundur. Həm də dövlətin apardığı siyasətə uyğundur. Ona görə də hesab edirəm ki, ölkə başçısının qeyd etdiyi məqamlar həmin fotosimvolda öz əksini tapmalıdır. Fikrimcə, belə olarsa, o zaman çox mükəmməl simvolika yaranacaq. Problemin mahiyyətini yetərincə simvolizə edə biləcək. O baxımdan hesab edirəm ki, Prezidentin bununla bağlı izahatı çox dolğundur".

***Vidadi ORDAHALLI***

---

**"Təəssüf ki, beynəlxalq təşkilatlarda sözçülük çox geniş yayılıb, özü də ilbəil bir məruzədən digərinə köçürülən və arxasında heç bir əməli iş dayanmayan şablon sözlər". Bu fikirləri Prezident İlham Əliyev TASS agentliyi direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində beynəlxalq təşkilatların nüfuzu və effektivliyi məsələsi barədə danışarkən səsləndirib.**

*"...beynəlxalq qurumların qəbul etdiyi qərarların icra mexanizmi ya yoxdur, ya da işləmir"*

# Beynəlxalq təşkilatlarla bağlı Rusiya KİV-nin İlham Əliyevin mövqeyinə marağının əsasları...

***Arzuxan Əlizadə:** "Prezidentin beynəlxalq təşkilatlarla bağlı səsləndirdiyi iradlar reallığı əks etdirir"*




Beynəlxalq təşkilatın nüfuzunun çox cəhətdən onun qəbul etdiyi qərarların yerinə yetirilməsindən asılı olduğunu bildirən dövlət başçısı deyib ki, hətta BMT Təhlükəsizlik Şurasının neçə illər bundan əvvəl qəbul etdiyi qətnamələr yerinə yetirilmir və Azərbaycan bunu öz timsalında yaşayıb: "Buna görə hökmən cəza mexanizmi olmalıdır. Əgər beynəlxalq təşkilat icrası zəruri olan qərar qəbul edirsə, bu qərar yerinə yetirilməlidir. Qərarı pozan üzv barəsində isə bir neçə mərhələdən ibarət prosedur olmalıdır, lakin bu prosedur yoxdur. Mənim fikrimcə, beynəlxalq təşkilatlara münasibətdə müəyyən ümidsizlik doğuran əsas amillər bunlardır".

Prezident onu da qeyd edib ki, bəzən beynəlxalq hüquqa zidd olan hərəkətlər müasir dünya nizamını şübhə altına alır. Ona görə ki, beynəlxalq hüquq hər kəs üçün prioritet olmalıdır və ölkələr onların potensialından, imkanlarından asılı olmayaraq, beynəlxalq hüquqa hörmət etməyə borcludurlar: "Amma biz bəzən beynəlxalq hüququn kobudcasına, nümayişkaranə şəkildə pozulduğunu görəndə sual yaranır: bəs biz nə üçün ona riayət etməliyik? Əgər başqaları onu pozmağı özlərinə rəva görə bilirsə, biz nə üçün poza bilmərik? Mən demirəm ki, biz bu yolla gedirik. Xeyr. Azərbaycan həmişə qanunun aliliyini və beynəlxalq hüququn aliliyini əsas götürür. Lakin haqlı olaraq, bu cür suallar yaranır və əlbəttə, onlara birgə cavablar axtarmaq lazımdır".

Müşahidələr göstərir ki, get-gedə beynəlxalq təşkilatların qərarları formal xarakter daşıyır. Bu da, öz növbəsində, sözügedən təşkilatlara inamı azaldır.

Məsələyə münasibət bildirən AMİP-in sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, Prezident İlham Əliyevin beynəlxalq təşkilatlarla bağlı səsləndirdiyi iradlar reallığı əks etdirir: "Bunun nəticəsidir ki, beynəlxalq təşkilatlara, bu qurumların qəbul etdiyi qərarlara inam qalmayıb. Reallıq ondan ibarətdir ki, beynəlxalq qurumların qəbul etdiyi qərarların icra mexanizmi ya yoxdur, ya da işləmir. Praktiki olaraq beynəlxalq təşkilatların qərarları beynəlxalq münasibətlərə təsir göstərə bilmir. Nəticədə illərlə yığılan problemlər həll olunmamış qalır. Ölkə başçısı çox düzgün və tutarlı əsaslarla bu sahədə mövcud olan vəziyyəti izah etdi.

Məsələ ondadır ki, beynəlxalq hüququn tez-tez çox kobud şəkildə pozulmasının şahidi oluruq. Əfsuslar olsun ki, bunun başlıca səbəbkarı elə aparıcı dövlətlərdir. Dünyanın aparıcı dövlətlərinin geosiyasi maraqları, aralarındakı rəqabət üzündən belə xoşagəlməz vəziyyət yaranır. Nəticədə bundan daha çox inkişaf etməkdə olan ölkələr əziyyət çəkirlər. Dünyada separatizm ocaqları, etnik münaqişələr artır. Beynəlxalq təşkilatların qərarları kağız üzərində qalmasa, o zaman vəziyyət fərqli olacaq".

***Vidadi ORDAHALLI***

# Koronavirusla mübarizə dövründə 10 ölkə kömək üçün Azərbaycana müraciət etdi - Prezidentin xəstəxana açılışındakı çıxışında fakt açıldı...

**Azərbaycan dövləti həm daxildə, həm də xaricdə pandemiya ilə bağlı həyata keçirilən mübarizə tədbirlərinə əvəzsiz töhfələr verib. Ümumiyyətlə, ölkəmizin koronavirusla ümumbəşəri mübarizə istiqamətində göstərdiyi maddi-texniki, mənəvi dəstək jestləri dünya birliyi tərəfindən təqdir edilir.**




## *Şakir Ağayev: "...yardım etdiyi ölkələrin adının çəkilməməsi o prinsipə söykənir ki..."*

İndiyə qədər ölkəmiz bir sıra dövlətlərə maddi və mənəvi yardımlar göstərib və bu da onlar tərəfindən minnətdarlıqla qarşılanıb.

Məlum olduğu kimi, mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışı olub və həmin mərasimdə Prezident İlham Əliyev olduqca məzmunlu çıxış edib, bu çıxışda yeni-yeni faktlar açıqlayıb.

"...Mən bunu demişəm, bir daha demək istəyirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda pandemiyaya qarşı mübarizə istiqamətində görülmüş tədbirləri yüksək qiymətləndirib, bizi nümunəvi ölkə adlandırıb. Bu, həqiqətən də belədir. Azərbaycanda həm ölkə daxilində, ilk növbədə, bütün lazımi tədbirləri görürük və beynəlxalq müstəvidə də öz sözümüzü deyirik. Mən deyə bilərəm ki, biz 10-dan çox ölkəyə yardım etmişik. Texniki yardım, maliyyə yardımı, təyyarələr göndərmişik, yük təyyarələri o ölkələrə ki, onlar bizə müraciət edib və onların maddi imkanları məhduddur, onların, belə deyək, müraciət edəcəyi başqa bir ölkə yoxdur. Ondan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır, əməldə. Biz o ölkələrdənik ki, əməldə bunu göstəririk..." - deyə Prezident İlham Əliyev vurğulayıb.

"Novoe vremya" qəzetinin baş redaktoru, tanınmış siyasi icmalçı Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövləti pandemiya ilə mübarizə tarixinə ən çox yardım edən və bəşəriyyətdən öz təmənnasız yardımını əsirgəməyən dövlət kimi düşəcək. "Cənab Prezident Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında bir sıra məsələlərə toxundu, o cümlədən də Azərbaycana kömək üçün müraciət edən 10-dan artıq ölkəyə yardım edildiyini vurğuladı. Pandemiya dövründə Azərbaycan dövlətinin ona yardım üçün müraciət edən 10-dan artıq ölkəyə maddi-texniki yardım göstərməsi, təyyarə göndərməsi və sair təqdirəlayiq haldır. Belə ağır gündə ehtiyacı olan dövlətlərə Azərbaycanın yardım əlini uzatması dövlətimizin və Prezidentimizin humanistliyinin, yardımsevərliyinin örnəklərindən biridir. XXI əsrin ən ağır bəlası olan koronavirusla mübarizə istiqamətində dövlətimizin ona müraciət edən dövlətlərə yardım etməsi, dəstəyini əsirgəməməsi ancaq müsbət qiymətləndirilə bilər. Çünki hətta sanksiya tətbiq etmiş dövlətlər belə bu dövrdə bir-birinə yardım etməyə çalışırlar. Şükürlər olsun ki, Azərbaycanın imkanları bu yardımları etməyə çatır. Çox təqdirəlayiq haldır ki, Azərbaycan dövləti, ilk növbədə, ölkəmizdə koronavirusla ciddi mübarizə aparır, bütün mənalarda, vətəndaşların qayğısına qalır. Onların sağlamlığını qoruyur, eyni zamanda da başqa ölkələrə yardımlar edir".

*"Azərbaycan dövlətinin başqa ölkələrə təmənnasız yardımlar etməsinin özü də böyük bir humanizm jestidir"*

Azərbaycan dövlətinin yardım etdiyi 10 ölkənin adının çəkilməməsinə gəlincə, Ş.Ağayev hesab edir ki, Prezident Azərbaycan xalqının milli və islami dəyərlərini, eləcə də insanlıq və humanizm prinsiplərini əsas götürərək o ölkələrin adını qeyd etməyib. "Çünki peyğəmbərimizdən belə bir misal var: "Sağ əlin verdiyini sol əl bilməməlidir". Başqa ölkələrdən fərqli olaraq, Azərbaycan dövlətinin yardım etdiyi ölkələrin adının çəkilməməsi o prinsipə söykənir ki, biz dövlət olaraq etdiyimiz bütün yardımları, yaxşılıqları təmənnasız, qarşılıqsız edirik, insanlıq naminə ehtiyacı olanların yanında ola bilirik.

Azərbaycan dövlətinin başqa ölkələrə təmənnasız yardımlar etməsinin özü də böyük bir humanizm jestidir. Düşünürəm ki, hətta başqa dövlətlər də müraciət edərsə, bu yardım prosesi Azərbaycan dövləti tərəfindən davam etdirilə bilər. İstərdik ki, pandemiya bəlası bitsin və Azərbaycan dövlətinin imkanları daha da böyüsün, heç kimin yardıma ehtiyacı olmasın, amma ehtiyacı olanlara yardımlar göstərilsin, bu yardımlar pandemiya ilə bağlı olmasın, həmin ölkələrin iqtisadiyyatlarının dirçəldilməsi ilə bağlı olsun" - deyə Ş.Ağayev qeyd etdi.

***İradə SARIYEVA***

# Qoşulmama Hərəkatı daxilində dövlətlərarası ziddiyyətlərin həllində Azərbaycanın vasitəçilik missiyası - Prezident yeni fakt açdı...

**"Bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib". Bunu Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində deyib.**




## *Fikrət Sadıqov: "Sözügedən missiyanı həyata keçirmək üçün ölkəmizin yetərincə siyasi nüfuzu və diplomatik imkanları var"*

Ölkə başçısının sözlərinə görə, Azərbaycan Qoşulmama Hərəkatına sədr seçiləndə məqsədlərindən biri də bu idi ki, bu təşkilat daxilində dövlətlərarası ziddiyyətlər bizim də iştirakımızla həll edilsin: "Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir, çünki bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında, yumşaq desək, gərgin münasibətlər var. Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib. Bakı Zirvə görüşündə mən demişdim ki, biz öz sədrliyimizi heç də formal sədrlik hesab etmirik, biz səmərəli sədr olmaq istəyirik. Hərəkatın beynəlxalq arenada nüfuzunu və rolunu yüksəltmək, ölkələr arasında daha sıx birlik istəyirik, şərait yaratmaq istəyirik ki, bəzi ölkələr arasında mövcud fikir ayrılıqları, zəruri hallarda bizim də iştirakımızla nizamlansın. Mən, həmçinin, dedim ki, Azərbaycan təkcə sədrlik dövründə deyil, bundan sonra da beynəlxalq arenada üzv ölkələrin mənafelərini müdafiə edəcək".

Prezidentin bu fikirləri, faktiki olaraq, Azərbaycanın Qoşulmama ölkələri arasında vasitəçilik etmək təklifidir. O baxımdan bu çox əhəmiyyətli missiyadır. Maraqlıdır, Azərbaycanın bu məqsədi həyata keçirmək üçün imkanları nə qədərdir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, sözügedən missiyanı həyata keçirmək üçün Azərbaycanın yetərincə siyasi nüfuzu və diplomatik imkanları var: "Əvvəla Prezident İlham Əliyevin belə bir təşəbbüslə çıxış etməsi olduqca təqdirəlayiq haldır. Qoşulmama Hərəkatının sədri olaraq bununla bağlı Azərbaycanın nüfuzu və müəyyən diplomatik imkanları var. Hərəkatda 120 ölkə təmsil olunur. Bəzi ölkələr arasında müxtəlif siyasi və digər səbəblərdən fikir ayrılıqları var. Pandemiya şəraitində ölkələri xüsusilə birləşdirmək, bəzi dövlətlər arasında mövcud olan fikir ayrılıqlarını müəyyən qədər aradan qaldırmaq, d a y a n d ı r m a q mümkündür. Ona görə də bu, siyasi və diplomatik baxımdan düşünülmüş bir addımdır.

*"Bu, siyasi və diplomatik baxımdan düşünülmüş bir addımdır"*

Düzdür, bu o qədər də asan olmayacaq. Eyni zamanda, bu o demək deyil ki, aralarında fikir ayrılıqları olan dövlətlər o dəqiqə qardaş münasibətlərdə olacaqlar. Bu, zaman tələb edən məsələdir. Ancaq, bütün hallarda, Azərbaycanın bu təşəbbüsü çox ciddi və lazımlı bir addımdır. Fikir ayrılıqları olan dövlətləri bir araya gətirmək və danışıqlar vasitəsilə həll yolu tapmaq imkanları var. Düzdür, bu, zaman tələb edir. Hesab edirəm ki, Azərbaycanın bu istəyi bir sıra dövlətlər tərəfindən düzgün qəbul olunacaq. Ona görə də buna ümidlər böyükdür".

***Vidadi ORDAHALLI***

**Koronavirusla mübarizə tədbirləri çərçivəsində ölkəmizdə mövcud olan xüsusi karantin rejiminin yumşaldılması prosesi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qərar verildikdən sonra bir sıra problemlər ortaya çıxıb.**




# Prezidentin yeni qərarı da koronavirusla mübarizə hədəflərinə uyğun oldu - "Sərt cəzalar"...

***Dəyanət Osmanlı:** "Cənab Prezident İlham Əliyevin vətəndaşların sağlamlığından dolayı narahatlıq ifadə edən bu göstərişini dəstəkləyirəm"*

Yumşaldılma prosesindən vətəndaşların sui-istifadə etməsi hallarına yol verməsi nəticəsində respublika ərazisində yoluxma halları artıb. Bu da karantin rejiminin yenidən sərtləşdirilməsini, qanunu pozan vətəndaşlara qarşı daha sərt cəza tədbirlərinin həyata keçirilməsini gündəmə gətirib.

Mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında çıxış edən Prezident İlham Əliyev karantin rejiminin qaydalarını pozan şəxslərə qarşı ciddi cəza tədbirlərinin həyata keçirilməli olduğunu qeyd edib: "...Əlbəttə, vətəndaşlar şəxsi gigiyenaya riayət etməlidirlər. Hesab edirəm ki, uzun müddət bundan sonra bu, bir növ, yeni reallıqdır və biz bu reallıqla barışmalıyıq, istəsək də, istəməsək də. Maska taxmaq, məsafə saxlamaq, gündə bir neçə dəfə sabunla əlləri yumaq, dezinfeksiya vasitələrindən istifadə etmək bir qayda olmalıdır. İndi bilirsiniz, biz bəzən özümüzü bir neçə ölkə ilə müqayisə edirik, deyirik, - bəli, mən də bu gün bunu deyirəm, - həqiqətdir ki, bir çox inkişaf etmiş ölkələrdə vəziyyət acınacaqlıdır, böhranlıdır. Azərbaycandan fərqli olaraq, o ölkələr bilmirlər ki, bu böhranla necə bacarsınlar. Amma, digər tərəfdən, biz görürük ki, o ölkələrdə, inkişaf etmiş ölkələrdə, məsuliyyət, nizam-intizam yüksək səviyyədə olan ölkələrdə insanlar məsafə saxlayırlar. Biz televiziyada görürük, növbə var, adamlar öz aralarında bir metr yarım, iki metr məsafə saxlayırlar, maska taxırlar. Amma bizdə məsafə saxlayan var? Açın istənilən kanala baxın. Dünən mən baxmışam, bankın qabağında bir-birinin yanında durublar, maska yox, müxbirlər soruşurlar ki, nə üçün? Elə bil ki, məktəb uşaqlarıdır, min cür bəhanə gətirirlər - yadımdan çıxdı, havada maska lazım deyil, cibimdədir. Biz belə münasibətə dözə bilmərik. Bu, zarafat deyil. Hər kəs bunu çox ciddi qəbul etməlidir. Belə adamlara qarşı ciddi cəza tədbirləri görüləcək. Mən bu gün bütün aidiyyəti orqanlara müraciət edərək deyirəm, cəza tədbirlərini sərtləşdirin. Biz vətəndaşları qorumalıyıq. Biz imkan verə bilmərik ki, hansısa intizamı pozan, məsuliyyətsiz adama görə vətəndaşlarımız xəstələnsin, ölsün. Ona görə bu qaydalara hər kəs riayət etməlidir, özü də bundan sonra uzun müddət ərzində...".

Prezident İlham Əliyevin karantin rejiminin qaydalarına əməl etməyənlərlə bağlı cəza tədbirlərinin sərtləşdirilməsi barədə aidiyyəti qurumlara xüsusi göstəriş verməsini təqdir edən Azərbaycanda Atatürk Mərkəzinin baş redaktoru Dəyanət Osmanlı bildirdi, digər vətəndaşların sağlamlığı üçün təhlükə törədən insanlarla bağlı cəzaların sərtləşdirilməsi vacibdir. "Cənab Prezident İlham Əliyevin vətəndaşların sağlamlığından dolayı narahatlıq ifadə edən bu göstərişini dəstəkləyirəm. Bu çox yerində və məqamında verilmiş qərardır. Son günlər koronavirusa yoluxanların sayının artması, əlbəttə ki, cəmiyyətdə narahatlıq doğurur. Dövlətimizin başçısının qaydaların sərtləşdirilməsi barədə xəbərdarlığı əbəs deyil. İnsanlar, eləcə də bütün qurumlar düzgün nəticə çıxarmalıdırlar. Doğrudan da real təhlükəyə saymazyana yanaşan bir cox vətəndaş var ki, onlar təkcə özləri üçün deyil, əksəriyyətin sağlamlığına problem yaratmış olur.

*"...bütün qurumlar düzgün nəticə çıxarmalıdırlar"*

Gündəlik olaraq müxtəlif məqamlarla rastlaşırıq. Təəssüf ki, bəzi hallarda yollarda yenə tıxaclar, qrup halında insanların hərəkəti, qoruyucu vasitələrdən istifadə olunmaması müşahidə olunmaqdadır. Əsasən də yaşlı vətəndaşlar qaydaları pozurlar, sanki heç nə vecinə deyil, yeri gəldi-gəlmədi, küçələrdə dolaşırlar. Onlar niyə qəbul etmək istəmirlər ki, hərəsi bir ailəyə bağlı olduqları halda, hələ çarəsi tapılmayan potensial xəstəlik təhlükəsini, ölümü evlərinə daşıyırlar". D.Osmanlının fikrincə, sərtləşdirilən qaydaların tətbiqinə ictimai qurumlar və media da ciddi dəstək verməlidir. "Görünür, maarifləndirici tədbirləri və üsulları da artırmaq lazımdır. Qayda pozucuları anlamalıdırlar ki, fərd olaraq həm özlərini, həm ailələrini, həm də digərlərini düşünməlidirlər" - deyə D.Osmanlı bildirdi.

*İradə SARIYEVA*

---

**Ölkəmizdə koronavirusa qarşı aparılan erkən və kompleks mübarizə tədbirlərinin nəticəsidir ki, bu gün Ümumdünya Səhiyyə Təşkilatı dövlətimizin fəaliyyətini yüksək qiymətləndirərək, Azərbaycanın virusdan ən az xəstələnmə, itki və qurban verən ölkələr siyahısında olduğunu elan edib.**




# Əgər Prezident özü də şəxsən karantin qaydalarına ciddi əməl edirsə - məsuliyyətsiz vətəndaşlara güzəştin məntiqsizliyi...

***Məlahət İbrahimqızı:** "Karantin qaydalarına əməl etməyən, maskasız evdən çölə çıxan..."*

Sözsüz ki, bütün bunlar, eyni zamanda, uğurla həyata keçirilən səmərəli, önləyici, preventiv, kompleks tədbirlərin nəticəsidir.

Koronavirusa qalib gəlmək üçün ölkəmizdə karantin rejimi tətbiq olunub. Lakin bəzi insanlar karantin rejiminə əhəmiyyət verməyib, əvvəlki qaydada küçəyə çıxırlar. Nəticədə koronavirusa yoluxanların sayı artır.

Karantin rejiminə əməl olunmasının vacibliyinə Prezident İlham Əliyev də toxunub. Prezident mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında çıxışı zamanı deyib ki, o, prinsip etibarilə intizamlı adamdır: "Buna görə mənim ictimai tədbirlərimdə ən çoxu 9 nəfər olur. Bizdə on nəfərdən çox adamın bir yerdə toplaşması qadağandır. Lakin mən ehtiyat üçün həmişə deyirəm, 9 nəfərdən çox olmamalıdır. Ən çoxu 10 və ya 9 nəfər. Bir də, əlbəttə, məsafəyə riayət edirəm. İctimai xarakterli tədbirlərdə də, görüşlərdə də belə olub. İlin birinci rübünün yekunlarına həsr olunmuş iclası videokonfrans rejimində keçirdik. Amma dəməliyəm ki, bu iclas əvvəl keçirdiklərimizdən o qədər də fərqlənmədi. Mənim tabeliyimdə olan işçilərlə söhbətlərim də videokonfrans formatında keçirilir. Yəni insan, prinsip etibarilə, hər şeyə alışır. Buna da vərdiş etmək lazımdır".

Karantin qaydalarına riayət etmək hər bir vətəndaşın borcudur. Ancaq bəzi vətəndaşlar karantin qaydalarına riayət etməyərək əvəzinə, sərbəst şəkildə, maskasız küçəyə çıxırlar. Ölkə başçısı karantin qaydalarına riayət etdiyi halda, vətəndaşların bu məsələyə qeyri-ciddi yanaşması düzgün deyil.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirdi ki, ölkədə koronavirusdan xəstələnənlərin, ölüm hallarının, aparılan test müayinələrinin sayının, ağır xəstələr, sağalanların dinamikası və statistikasının təhlilinin nəticələrini nəzərə alaraq Operativ Qərargah karantin rejiminin yumşaldılmasına getdi: "Lakin tətbiq edilən bu yumşalmalar o demək deyil ki, virusun təhlükəsi aradan qalxdı. Qətiyyən belə deyil. Bu gün koronavirusdan daha çox əziyyət çəkən ölkələrdə ciddi nəzarət etməklə müəyyən yumşalmalar tətbiq edilir. Ölkəmizdə də postkorona dövrünə hazırlıq üçün mərhələli və yumşaldıcı tədbirlər həyata keçirilir. Bütün bunlara baxmayaraq, vətəndaşlar Operativ Qərargahın təlimatlarına və qaydalarına əməl etməlidirlər. Sözsüz ki, şəxsi gigiyena, özünütəcrid, kütləvi tədbirlərin qadağası ən önəmli qaydalardır. Unutmaq olmaz ki, virusun spesifik xüsusiyyətlərindən biri də təkrar dalğaların olmasıdır".

*"Ölkəmizdə hər bir vətəndaş bu qlobal təhlükə ilə mübarizədə ciddi məsuliyyəti olduğunu başa düşməlidir"*

Deputatın sözlərinə görə, bəzi ölkələrdə karantin rejiminə əməl etmədə problemlər olduğundan, yeni dalğalar başlayıb: "Ölkəmizdə hər bir vətəndaş bu qlobal təhlükə ilə mübarizədə ciddi məsuliyyəti olduğunu başa düşməli və bütün qaydalara əməl etməlidir.

Ehtiyatsızlıq və məsuliyyətsizlik ölkəmizdə koronavirusa qarşı aparılan uğurlu mübarizəyə kölgə sala bilər. Ümumiyyətlə, yumşaldıcı tədbirlər müvəqqəti ola bilər. Bu, bir növ, həm də dinamikanın test edilməsidir. Yəni, Allah eləməsin, dinamikada mənfiyə doğru hər hansı tendensiya baş verərsə, yenidən çox ciddi qaydalar tətbiq edilə bilər".

M.İbrahimqızı onu da vurğuladı ki, karantin qaydalarına əməl etməyən, maskasız evdən çölə çıxan vətəndaşlar cəzalandırılmalıdırlar.

*Günel CƏLİLOVA*

# Qoşulmama Hərəkatının videozirvəsi ilə Azərbaycan dünyanı birləşdirdi - ideya artıq dünya rəyinə çevrilməlidir...

***Zamiq Abdullayev:** "...Bakı növbəti dəfə əks qütblərin birləşdiricisi rolunda çıxış etdi"*

**Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsi zamanı ölkəmizin pandemiya ilə mübarizə çərçivəsində gördüyü işlərdən, atdığı addımlardan danışıb:**

"Mənim təşəbbüsümlə biz dövlət və hökumət başçıları səviyyəsində BMT-nin koronavirusa həsr edilmiş xüsusi Baş Assambleyasının keçirilməsini təklif etdik. Hərəkatın üzvü olan ən həssas ölkələrə təxirəsalınmaz kömək göstərilməsi üçün biz Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. Bu bizim ikinci donor ianəmizdir. Bundan əvvəl mart ayında da qlobal pandemiyaya qarşı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırmışdıq. Qoşulmama Hərəkatında yaradılmış Təmas Qrupu formatı üzv ölkələr tərəfindən böyük dəstək alıb. Biz istiqamətlər üzrə yarımqruplar və COVID-19-a qarşı mübarizə üzrə vahid məlumat bazası yaradılmasını təklif etdik ki, həm Hərəkatın belə niyyəti olan üzvləri, həm beynəlxalq təşkilatlar, həm də donor təşkilatlar vaxtında yardım göstərmək üçün informasiya bazasına malik olsunlar. Mən deyərdim ki, Zirvə görüşünün keçirilməsinin əsas məqsədləri də, nəticələri də budur. Bir daha deməliyəm ki, bütün iştirakçılar bu görüşün vacibliyini, zəruriliyini qeyd etdilər, bu təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildirdilər. Deməliyəm ki, bu bizim keçirdiyimiz ilk Zirvə görüşü deyil. Hazırda Azərbaycan həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədridir və aprelin 10-da bu təşkilatın Azərbaycanın təşəbbüsü ilə keçirilmiş Zirvə görüşü faktiki olaraq dünyada videokonfrans formatında ilk Zirvə görüşü oldu. Biz iki ay ərzində çox mühüm iki beynəlxalq tədbir keçirdik, əminəm ki, onlar həmrəyliyi və əməkdaşlığı möhkəmlədəcək. Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı bir məqam da ondan ibarətdir ki, dediyim kimi, Qoşulmama Hərəkatında 120 ölkə, sədri məktubla müraciət etmiş Afrika İttifaqında 55 ölkə, ali nümayəndəsi bu tədbirdə iştirak edən Avropa İttifaqında 27 ölkə var. Buna görə, təvazökarlıqdan kənar olsa da deməliyəm ki, Azərbaycan və Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi".




Göründüyü kimi, ölkə başçısı Azərbaycanın təşəbbüsləri ilə bütün dünyanın bir araya gəldiyi fikrini vurğulayır. Ölkəmizin pandemiya dönəmində əldə etdiyi bu nailiyyəti necə qiymətləndirə bilərik?

Politoloq Zamiq Abdullayev qəzetimizə bildirdi ki, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşü dünyada böyük maraq oyadıb:"Bu sammit göstərdi ki, Azərbaycanın qlobal səyləri beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq dəstəklənir. Qoşulmama Hərəkatı fikir mübadiləsi, qlobal həmrəylik və əməkdaşlıq üçün səmərəli platformaya çevrilib. Azərbaycan öz təşəbbüsləri və praktik addımları ilə beynəlxalq əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə, qlobal pandemiya ilə mübarizədə səylərin birləşdirilməsinə ciddi töhfələr verir. Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev bütün ölkələri dostluğa, həmrəyliyə və qarşılıqlı dəstəyə dəvət etdi. Azərbaycan bir daha təsdiq etdi ki, Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə qətiyyətlə əməl edir. Koronavirusa qarşı ölkəmiz tək milli deyil, regional və qlobal miqyasda da mübarizəyə qoşulub. Dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi Azərbaycan koronavirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağrışlarına dəstək verib".

**Ekspertin sözlərinə görə, pandemiyanın dünyanı ciddi sınaqlar qarşısında qoyduğu bir vaxtda, qlobal əməkdaşlığa ehtiyac duyulduğu bu həssas məqamda məhz bu zirvə toplatısının təşəbbüskarı qismində çıxış etməklə Azərbaycan növbəti dəfə həmin prinsiplərə sadiqliyini nümayiş etdirdi:"Biz doğrudan da, bu cür tədbirlərlə dünyanı bir araya gətirməyi bacardıq. Bununla da, bütün dövrlərdə olduğu kimi, qlobal pandemiyanın yaratdığı mürəkkəb şəraitdə, dünya ölkələrinin öz sərhədləri daxilində mürəkkəb çağırışlarla üz-üzə qaldığı vaxtda Bakı növbəti dəfə əks qütblərin birləşdiricisi rolunda çıxış etdi. Bu səbəbdən yekun bəyannamədə də söz-ügedən toplantı Azərbaycan Prezidentinin dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsü kimi xarakterizə olunur".**

***Məhəmmədəli QƏRİBLİ***

**Erməni faşizminin ciddi təhdid mənbəyi olaraq qaldığına dair Azərbaycan tərəfinin etdiyi gedişlərə dəstək verənlərin sayı artır. Bu durumda Azərbaycan qeyd edilən təhdidin hələ də tam aradan qalxmadığını hər fürsətdə dünya ictimaiyyətinə çatdırmaqda davam edir.**

# Erməni faşizminə Azərbaycandan növbəti zərbə - Prezident Əliyev bir daha Njde məsələsinə qayıtdı, həm də Rusiya mətbuatına müsahibəsində...



Qeyd edilən səpkidə, xüsusən Prezident İlham Əliyev tərəfindən atılan addımlar, görülən işlər daha çox diqqət cəlb edir.

Yeri gəlmişkən qeyd edək ki, dövlət başçısı TASS agentliyi direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində bu məsələyə yenidən toxunub. O, bəzi ölkələrdə ikinci dünya müharibəsi abidələrinə münasibətdə vandalizm aktının hörmətsizlik və iyrənclik hissi yaratdığını deyib. Keçmiş SSRİ məkanında xüsusilə belə şeylərin görünməsinin xoş olmadığını bildirib. Bundan əlavə, Prezident müsahibə zamanı yenidən Ermənistanda faşist Qaregin Ter-Arutyunyana abidə ucaldılması məsələsinə toxunub:"Belə insana Ermənistanda altı metrlik abidə ucaldılır, açılışında bu ölkənin prezidenti, keçmiş prezidenti iştirak edir. Bu məsələni qaldırmaqla mən MDB-dəki həmkarlarımın diqqətini ona cəlb etmək istəyirdim ki, biz gərək özümüzdə, öz təşkilatımızda bütün "və"lərə nöqtə qoyaq. Biz burada politkorrektəlik, selektivlik, kiminsə xətrinə dəyməmək prinsiplərini rəhbər tutmamalıyıq. Biz gərək həqiqəti deyək, əks təqdirdə bu təşkilat formatında diskussiya mənasını itirəcək. Mən güman edirdim ki, özünü demokrat kimi təqdim edən Ermənistanın yeni rəhbərliyi mənim təşəbbüsümü dəstəkləyəcək. Təəssüf ki, mən başqa şey gördüm. Erməni nümayəndə heyətinin rəhbəri, Baş nazir bu canini müdafiə edərək, Ter-Arutyunyanın düşərgədə olması faktının əhəmiyyət daşımadığını, Soljenitsının da düşərgədə olduğunu dedi. Bilirsiniz, mən protokolu pozub, yenidən söz istədim və dedim ki, Soljenitsını faşistlə müqayisə etmək həyasızlığın zirvəsidir. Bütün bunlar böyük təəccüb və çaşqınlıq yaradır, həmçinin Ermənistanda hakimiyyətin dəyişəcəyi, amma rejimin əvvəlki kimi qalacağı fikrinə gətirib çıxarır".

Burada bir daha qeyd edək ki, Ermənistanda faşist Njdenin qəhrəman obrazının yaradılması ilə bağlı məsələni İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında qaldırıb. Dövlət başçısı faşistlərin qəhrəman kimi qələmə verilməsini qətiyyətlə pisləyib, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer olmadığını vurğulayıb. İlham Əliyev 2019-cu ildə Rusiya Xarici İşlər Nazirliyinin təqdim etdiyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrıseçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzədən sitat gətirərək deyib ki, Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb. Ermənistan paytaxtının mərkəzində faşist cəlladı və satqın Qaregin Njdeyə heykəl qoyulmasını kəskin şəkildə pisləyən və bunu faşizmin təbliği kimi dəyərləndirən Azərbaycan Prezidentinin bu çıxışı geniş əks-səda doğurdu. Hətta iş o yerə gəlib çıxdı ki, Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov nasist havadarı Njdenin xatirə lövhəsinin üstünü qara rənglə boyadı. Daha sonra Armavir şəhərində erməni Qaregin Njdenin xatirə lövhəsi söküldü. Burada onu da xatırladaq ki, Qaregin Njde Böyük Vətən müharibəsi illərində nasional sosialistlərin erməni legionunun yaradıcısı olub. O, Şimali Qafqazda Sovet Ordusuna qarşı vuruşub. 1948-ci ildə nasist Almaniyasına havadarlıqda təqsirləndirilərək 25 il müddətinə azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb.

İndi İkinci Dünya müharibəsində qazanılan qələbənin növbəti ildönümündə erməni faşizminin yenidən gündəmə gətirilməsi İrəvan üçün yeni diplomatik zərbə sayılır. Rusiyanın "Vestnik Kavkaza" informasiya agentliyi yazır ki, Bakı bu məsələdə İrəvana təzyiqlər göstərməkdə davam edəcək:"Burada Ermənistan zəif mövqedədir. Çünki İrəvanın Qaregin Njdenin cinayətkarlığına münasibətdə ritorikası elə fikir yaradır ki, nasistlərlə əlbirlik indiki Ermənistan üçün cinayət hesab edilmir. Amma dünya, xüsusən də Rusiya tamam fərqli mövqedədir. Ruslar, ukraynalılar, azərbaycanlılar, belaruslar o dövrdə ümumi vətəni qorumaq üçün, qələbə uğrunda həyatlarını qurban veriblər və bu gün kimliyindən, millətindən asılı olmayaraq, Njde kimi faşist cinayətkarları qəhrəmanlaşdırmağa çalışdıqda, bu, Üçüncü Reyxin həyata keçirdiyi siyasətə birbaşa havadarlıq kimi qəbul olunur.

**Faşist havadarları olan satqınlara bəraət qazandırılması ortaq həqiqəti, ümumi böyük qələbəni qorumaq baxımından qəbuledilməzdir". Agentlik vurğulayır ki, Azərbaycan bundan sonra da faşizm məsələsini qabardaraq bu məsələdə daha çox dövlətin yanında yer almasına çalışacaq. Bu isə, öz növbəsində, Ermənistanın daha çətin durumda qalması demək olacaq. Xüsusən də Rusiyanın bu məsələyə konkret reaksiya sərgiləməsi olduqca vacibdir. Moskvada hesab edilir ki, KTMT və MDB üzvü olan Ermənistan hökuməti tərəfindən belə mövqe tamamilə qəbuledilməzdir.**

***Nahid SALAYEV***

# Qələbənin 75 illiyi ərəfəsində Ermənistana "tərs şillə" - bu ölkənin qəhrəmanları yoxdur ki, faşistə "məhəbbət" edirlər...

***Daşdəmir Əliyev:** "Bu çıxış yalnız Rusiya üçün deyil, faşizmdən əziyyət çəkən bütün dünya ölkələri üçün aktuallıq kəsb edir"*

**Ölkə başçısı faşizm üzərində qələbənin 75 illiyi ərəfəsində Rusiya telekanallarından birinə verdiyi müsahibədə yenidən Ermənistanın dövlət səviyyəsində faşizmi dəstəkləməsinə diqqəti yönəldib. Prezident deyib ki, biz tarixi yenidən yazmaq, Böyük Vətən müharibəsi haqqında həqiqəti təhrif etmək, faşizmi və faşist canilərini qəhrəmanlaşdırmaq cəhdlərini qətiyyətlə pisləyirik:**

"Azərbaycan bir sıra forumlarda bu mövzuda açıq çıxış edib, o cümlədən mən dəfələrlə öz mövqeyimi bildirmişəm. Deməliyəm ki, Azərbaycan cəmiyyəti bu mövqeyə tam şərikdir. Əlbəttə, bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması prosesi bizim üçün əsla qəbuledilməzdir".

Bu məsələləri dəfələrlə, o cümlədən MDB ölkələrinin sonuncu Zirvə görüşündə qaldırdığını bildirən Prezident deyib:"Mən təəssüflə qeyd etdim ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir. Konkret misallarla göstərdim ki, bir neçə il bundan əvvəl Ermənistanda faşist cəllad və cani, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adamın cinayətləri sübut olunub. Buna görə bu məsələni qaldıranda ümid edirdim ki, Ermənistanın yeni, özünü demokratik kimi göstərməyə çalışan rəhbərliyi mənim təşəbbüsümü dəstəkləyəcək. Lakin təəssüf ki, bunun əksini gördüm".

Prezident qeyd edib ki, bütün bunlar böyük təəccüb, heyrət doğurur:"Belə bir fikrə əsas verir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalır".

Rusiya Federasiyasının Armavir şəhərində də cinayətkar, faşistlərin əlaltısı Njdeyə xatirə lövhəsi vurulduğunu xatırladan Prezident deyib:"Yalnız mən bu məsələni dövlət başçılarının Zirvə görüşündə qaldırandan və bu məsələ kütləvi informasiya vasitələrində əksini tapandan sonra həmin lövhə götürülüb. Haqlı olaraq sual yaranır: Ermənistanda Böyük Vətən müharibəsi qəhrəmanları olmayıbmı? Bəs Armavirdə erməni kilsəsinin yaxınlığında nə üçün onlara yox, faşist caniyə xatirə lövhəsi vurulub? Bunu necə başa düşməli? Ona görə bu məsələlər geniş müzakirə edilməlidir. Yenə də hər bir ölkə bu məsələyə öz münasibətini selektivlik, siyasi korrektlik mülahizələrinə görə deyil, birbaşa və açıq şəkildə bildirməlidir. Ermənistanda bir tərəfdən deyirlər ki, onlar Qələbənin yubileyini bayram edəcəklər, amma digər tərəfdən faşistin abidəsi önünə gül qoyurlar. Bu, ən azı ziddiyyət, əslində isə riyakarlıq təzahürüdür".




Ölkə başçısının bu mövzuya yenidən toxunmasının Rusiya auditoriyası üçün nə kimi əhəmiyyətə malikdir və onların Böyük Vətən Müharibəsi qəhrəmanı yoxdur ki, yalnız faşistin abidəsini ucaldırlar?

Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bir müddət əvvəl Prezident İlham Əliyev Aşqabad şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Ermənistanda hökm sürən nasizm və faşizmə diqqət çəkdi, Ermənistanda faşizm ideologiyasının mövcudluğunu ifşa etdi:

"Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana Ermənistanda heykəl qoyulması Ermənistanın əsaslarının yarandığı gündən məhz terrorizm üzərində qurulmasından xəbər verir. Azərbaycan torpaqlarının işğal edilməsində, xalqımıza qarşı soyqırımın həyata keçirilməsində də bu cür faşist, nasist əhval-ruhiyyə mühüm rol oynayıb. Terrorizm və faşizmlə silahlanan bir ölkə rəhbərliyi sülh yolu ilə Dağlıq Qarabağ probleminin həlli istiqamətində addımlar ata bilməz. Bu mənada, Azərbaycan Prezidentinin Ermənistandakı daxili ideoloji, siyasi abı-havanı ifşa etməsi, bunu geniş auditoriyanın diqqətinə çatdırması əslində Ermənistanın işğalçılıq siyasətinin iç üzünün açılması deməkdir. Bu, bütün dünyada , xüsusilə də MDB məkanında fiaşizmin qurbanları olmuş insanların xatirəsinə hörmət baxımından da yolverilməzdir. Ölkə başçısının yenidən bu məsələyə toxunması Ermənistanda hansı proseslərin getdiyini və bunun nə dərəcədə təhlükəli olduğunu dünya ictimaiyyətinə çatdırmış oldu.

Sübut olunur ki, Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasətinin və onun ideoloji əsaslarının bir mənbəyi ermənilərin faşizm və nasizmə sevgidir. MDB ölkələri sırasında isə belə zərərli, terrorizmlə silahlanmış bir dövlətin olması təkcə Azərbaycan deyil, bütün MDB ölkələri üçün təhlükə mənbəyidir. Azərbaycan Prezidenti öz çıxışında bütün bunları bir daha ifşa etməklə Ermənistanın nə qədər təhlükəli yolda olduğunu diqqətə çatdırdı. Bu çıxış yalnız Rusiya üçün deyil, faşizmdən əziyyət çəkən bütün dünya ölkələri üçün aktuallıq kəsb edir. Ermənistanda faşizmlə mübarizə baxımından qəhrəman adına layiq görülən kifayət qədər şəxsin adını çəkmək olar. Onların xatirəsinin əbədiləşməsinə marağın göstərilməməsi Ermənistanın bir dövlət kimi xisləti ilə bağlıdır. "Faşistlər elə faşistə ehtiram göstərər" prinsipi burda özünü qabarıq biruzə verir".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan dünya miqyasında Ermənistanın dayaqlarını tam sarsıdır...

**Ermənistanın işğal siyasətinin ifşa edilərək dünya miqyasında tənqid hədəfinə çevrilməsi istiqamətində Azərbaycan tərəfindən atılan addımlar düşmən ölkədə böyük təşviş yaradır. İndi burada açıq etiraf edilir ki, Ermənistanın Azərbaycana maneə yarada bilməsi artıq müşkül məsələdir.**

Əksinə, hətta erməni lobbisinin güclü olduğu yerlərdə belə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dilə gətrilməsinə heç kim əngəl ola bilmir. Buna elə ABŞ-da baş verənləri misal göstərmək olar.

Qeyd edək ki, burada nüfuzlu "Con Batçelor Şou" radio proqramında yenidən Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub və konfliktlə bağlı maraqlı fikirlər səslənib. Corctaun Universitetinin professoru, tanınmış mütəxəssis Brenda Şaffer burada bir daha bəyan edib ki, konfliktin çözümünə bu gün maneə olan tərəf məhz Ermənistan və erməni lobbisidir:"Erməni lobbisi regionda sülhün bərqərar olmasını istəmir". Professor Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gedən danışıqlar fonunda Ermənistanın və ermənilərin təxribatçı əməllərinin yolverilməzliyini, bunun yalnız sülhə mane olduğunu bildirib. B.Şaffer ABŞ-da yaşayan ermənilərin veb-saytlar və sosial şəbəkələr vasitəsilə müxtəlif təxribatlara əl ataraq xalqların sülhə hazırlanmasına mane olduğunu bildirib.

Bundan başqa, məlum olduğu kimi, son aylarda erməni lobbi təşkilatlarının və konqresmenlərin fəal səylərinə baxmayaraq, ABŞ Qarabağ separatçılarına göstərdiyi birbaşa yardımı dayandırıb. Amerika Tədqiqatları Erməni Mərkəzi yardımın bərpası üçün bütün cəhdlərin səmərəsiz qaldığını bildirib. Baş verənlərlə bağlı erməni ekspert Qarpis Paşoyan qeyd edir ki, hadisə Ermənistan hökumətinin ən böyük məğlubiyyətlərindən biridir: "Son iki ildə Vaşinqtonla konstruktiv dialoqa başlamaq üçün faktiki olaraq heç bir iş görülməyib. Üstəlik, Paşinyanın kabineti ardıcıl fəaliyyəti ilə Ermənistan-Amerika əməkdaşlığının ən pis və əlverişsiz mərhələsini qeydə alıb. Dövlətlərarası münasibətlər heç vaxt belə soyuq və qeyri-müəyyən olmayıb. Ermənistanın məğlubiyyəti, şübhəsiz ki, Azərbaycanın qələbəsidir. Bu vəziyyətin yaranmasında Azərbaycanın lobbi təşkilatları da böyük rol oynayıb. Lakin Ermənistan və ümumilikdə erməni amili öz yerində olsaydı, Azərbaycan lobbisi heç vaxt bu şəkildə irəliləyiş əldə edə bilməzdi". Lakin ermənilərin mövqeyi təkcə okeanın o tayında sarsılmır.

Erməni lobbisinin güclü olduğu digər ölkə sayılan Fransada da indi Qarabağ həqiqətlərini dilə gətirənlərin sayı artır və bura çoxsaylı media orqanları da daxildir. Fransanın "taurillon.org" portalında münaqişə ilə bağlı dərc olunmuş növbəti yazı da qeyd edilənlərin daha bir təsdiqidir. Yazıda Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı barədə məlumat verilir. Azərbaycan ərazisində erməni separatçılarının martda və apreldə keçirdiyi "prezident seçkiləri"nin qanunsuz və əsassız olduğundan söz açılır. Qeyd edilir ki, ayrı-ayrı ölkələr bu qondarma seçkiləri tanımadıqlarını bildiriblər. Avropanın və dünyanın digər ölkələrinin də eyni mövqe tutduğu göstərilir. Avropa İttifaqı, Qoşulmama Hərəkatı, ATƏT kimi beynəlxalq təşkilatların, eləcə də Böyük Britaniya, Almaniya, İtaliya, Çin, İsveçrə, Kanada, Avstraliya, Pakistan, Ukrayna, Finlandiya, Norveç kimi ölkələrin hər birinin eyni fikri - "beynəlxalq hüquqa, eləcə də mövcud siyasi prosesə riayət edilməlidir" fikrini bəyan etdiyi vurğulanır. Məqalədə erməni diplomatiyasının bu günə qədər BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrə əməl etmədiyi, qoşunlarını Dağlıq Qarabağdan hələ də çıxarmadığı bildirilir. Ermını diasporunun güclü olduğu Rusiyada da Qarabağ həqiqətlərini səsləndirənlərin sayı artır və İrəvan bütün bunları özü üçün ciddi təhdid sayır. Ermənistanın iddialarına baxmayaraq, Rusiya Paşinyan rejiminə inanmır və münasibətlərdə gərginlik və etimadsızlıq hökm sürür. Ermənistanın "Hayeli" nəşri yazır ki, Bakı İrəvana sərt diplomatik zərbələr endirir:"Azərbaycan yaxın gələcəkdə təkcə təmas xəttində deyil, həm də diplomatik cəbhədə yeni bir sıra addımlar atacaq. Belə bir şəraitdə Ermənistan hakimiyyəti dəqiq hazırlanmış diplomatik addımlar atmalıdır. Ermənistan hakimiyyətinin beynəlxalq platformalarda Azərbaycana qarşı işi yetərli deyil. Bu, açıq şəkildə erməni diplomatiyasının uğursuzluğu deməkdir". Həqiqətən də Azərbaycan tərəfinin qətiyyətli mövqeyi qarşısında erməni tərəfi birmənalı şəkildə duruş gətirə bilmir. Bu durumda yalnız Dağlıq Qarabağ münaqişəsinin həlli modelinin işə salınmasına razılıq verməklə Ermənistan özünü də xilas edə bilər və dünya miqyasında biabırçı duruma düşməz. Bu modelə əsasən, öncə Dağlıq Qarabağ ətrafındakı rayonların işğaldan azad edilməsi və erməni silahlı qüvvələrinin oradan çıxması, sonra öz yurdlarından didərgin düşən azərbaycanlıların evlərinə qaytarılması mühümdür. Ardınca kommunikasiyaların açılması, sabitlik yaranandan sonra isə Azərbaycan qanunları çərçivəsində bölgənin statusunun Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində həll edilməsi baş tutmalıdır. Elə son günlər aktullaşan mərhələli həll də məhz bunu ehtiva edir. Ermənistan buna razılıq verməsə, baş verənlərdən lazımi nəticələr çıxarmasa, daha çox diplomatik, ardınca isə sərt hərbi məğlubiyyətə məruz qalacaq. Bunu rusiyalı ekspert Vitali Arkov da xüsusi olaraq vurğulayır. O, ağır duruma düşən Nikol Paşinyan iqtidarının münaqişənin həllinə razılıq verməsini vacib sayır: "Ermənistanda mövcud hakimiyyətin durumu ağırdır. Artıq dəqiq demək olar ki, Nikol Paşinyanın marionet rejiminin süqutuna çox az qalıb: xalqın qəzəbi onu "Soros yuvasının cücələri" ilə birlikdə yıxacaq. Ümid edək ki, Paşinyanı əvəz edəcək yeni rəhbərlik ölkəni fəlakətdən xilas etməyə, beynəlxalq vəziyyəti sağlam qiymətləndirməyə qadir olacaq və anlayacaq ki, daha öncə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək və Qarabağ probleminin mərhələli şəkildə həllinə başlamaq onun da xeyirinədir. Yəni ilk növbədə işğal altındakı Azərbaycan rayonları tam olaraq Bakının nəzarətinə verilməlidir və yalnız bundan sonra İrəvan Dağlıq Qarabağın gələcəyi barədə mümkün müzakirəyə ümid edə bilər". O əlavə edib ki, Bakı Ermənistanda uzun illərdir millətə yalan və uydurma təbliğat aparıldığını və beyinlərin yuyulduğunu yaxşı anlayır. Ona görə də bilir ki, Ermənistandakı istənilən hakimiyyət üçün cəmiyyətin fikrini dəyişmək və onu konstruktiv mövqeyə gətirmək asan deyil:"Buna görə Bakı İrəvana vaxt da verə bilər. Azərbaycan Türkiyə ilə birlikdə blokada rejiminin yumşaldılması ehtimalını müzakirə etməyə hazırdır - lakin əlbəttə ki, İrəvanın işğal olunmuş rayonlarla bağlı öz öhdəliklərini yerinə yetirməsindən sonra". Təbii ki, Ermənistan buna getməsə, Azərbaycanın güc amilini işə salması qaçılmazdır. Bunun məsuliyyəti isə, Azərbaycan Xarici İşlər Nazirliyi Mətbuat Xidməti İdarəsinin rəisi Leyla Abdullayevanın qeyd etditi kimi, İrəvanın üzərinə düşür. Belə ki, Nikol Paşinyanın bu günlərdə parlamentdə çıxışı zamanı münaqişənin həlli ilə bağlı mövqeyinin 2018-ci ildən bəri zərrə qədər də dəyişmədiyi barədə bəyanatını şərh edərkən o, Ermənistan baş nazirinin bu bəyanatı ilə Dağlıq Qarabağ münaqişəsinin həllinə və beləliklə də bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına məhz Ermənistanın əngəl törətdiyini etiraf etmiş olduğunu bildirib:"Bu bəyanat kimin danışıqlardan imtina etdiyini, kimin beynəlxalq ictimaiyyətin, ilk növbədə isə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməkdən imtina etdiyini, beləliklə də, kimin münaqişənin tənzimlənməsinə mane olduğunu açıq şəkildə göstərir. Ermənistan rəhbərliyi bu açıqlamaların münaqişənin danışıqlar yolu ilə tənzimlənməsinə heç də xidmət etmədiyini anlamalı və nəhayət dərk etməlidir ki, Azərbaycan öz Konstitusiyasına və beynəlxalq hüququn norma və prinsiplərinə istinadən beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa edəcək. Münaqişənin həlli çərçivəsində yarana biləcək hər hansı gərginliyin məsuliyyəti isə Ermənistan tərəfinin üzərindədir". Hər halda, real mənzərə bundan ibarətdir ki, Azərbaycan diplomatik müstəvidə Ermənistana sarsıdıcı zərbələr vurub. Indi Azərbaycan bunu hərbi sahədə də etməyə hazırdır. Ermənistan müvafiq nəticələr çıxarb münaqişənin dinc müstəvidə həllinə dair real gedişlər etməsə, hərb qaçılmazdır. Buna qədər isə Azərbaycan diplomatiya sahəsində Ermənistanın mövqelərini sarsıtmaqda davam edəcək.

Ermənistanın mövcud rəhbərliyi regional və beynəlxalq reallığı düzgün dərk edib nəticə çıxarmadığı halda, ölkənin iflası və özünütəcridi daha da dərinləşəcək. İrəvanın siyasi, iqtisadi, sosial, demoqrafik və diplomatik böhrandan çıxmağının yeganə yolu işğal siyasətinə son qoyması, Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarması, qonşu dövlətlərlə sivil əsaslarla münasibət qurmasıdır. İndilikdə isə Azərbaycanın həyata keçirdiyi uğurlu xarici siyasət işğalçı Ermənistanı daim küncə sıxışdırmaqla mümkün qədər tez işğal faktına son qoymağa hesablanıb. Strateji balansı öz lehinə dəyişmək istəyən Ermənistan hər dəfə Azərbaycanın zərbələri ilə daha pis duruma düşür.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

**"Ermənistanda bir tərəfdən deyirlər ki, onlar Qələbənin yubileyini bayram edəcəklər, amma digər tərəfdən, faşistin abidəsi önünə gül qoyurlar. Bu, ən azı ziddiyyət, əslində isə riyakarlıq təzahürüdür".**



# Ermənistanın riyakar dövlət siyasətinin iç üzü yenidən nümayiş edildi - Qələbənin 75 illiyi hara, faşistə heykəl qoymaq hara...

## *Qasım Hacıyev: "Qələbənin yubileyini bayram edən dövlət faşistə abidə qoymamalıdır"*

Bunu Prezident İlham Əliyev TASS agentliyi direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində deyib.

Ölkə başçısının sözlərinə görə, bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması prosesi bizim üçün əsla qəbuledilməzdir. Bu məsələləri dəfələrlə, o cümlədən, MDB ölkələrinin sonuncu Zirvə görüşündə qaldırdığını bildirən dövlət başçısı qeyd edib ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir. Prezident qeyd edib ki, bütün bunlar böyük təəccüb, heyrət doğurur. Belə bir fikrə əsas verir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalır.

Rusiya Federasiyasının Armavir şəhərində də cinayətkar, faşistlərin əlaltısı Njdeyə xatirə lövhəsi vurulduğunu xatırladan Prezident İlham Əliyev deyib ki, bu məsələni dövlət başçılarının Zirvə görüşündə qaldırandan və sözügedən məsələ kütləvi informasiya vasitələrində əksini tapandan sonra həmin lövhə götürülüb: "Haqlı olaraq sual yaranır: Ermənistanda Böyük Vətən Müharibəsi qəhrəmanları olmayıbmı? Bəs Armavirdə erməni kilsəsinin yaxınlığında nə üçün onlara yox, faşist caniyə xatirə lövhəsi vurulub? Bunu necə başa düşməli? Ona görə bu məsələlər geniş müzakirə edilməlidir. Yenə də hər bir ölkə bu məsələyə öz münasibətini selektivlik, siyasi korrektlik mülahizələrinə görə deyil, birbaşa və açıq şəkildə bildirməlidir".

Görünən odur ki, Ermənistan sözügedən məsələdə həqiqətən də riyakar dövlət siyasəti yürüdür. Bir tərəfdən Qələbənin yubileyini bayram edəcəklər, digər tərəfdən, faşistin abidəsi önünə gül qoyurlar. Bunun bir adı var, riyakarlıq.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitu-

> *"Bütün bunlar Ermənistanda dövlət səviyyəsində riyakar siyasətin yeridilməsini sübut edir"*

tunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyevin sözlərinə görə, bütün bunlar onu sübut edir ki, Ermənistanda rəsmi səviyyədə riyakar dövlət siyasəti yeridilir: "Bütövlükdə, Ermənistanın istər daxili, istərsə də xarici siyasəti saxta əsaslar üzərində qurulub. Çünki onların tarixi uydurma fikirlərə əsaslanır. Onların tarix barədə fikirləri nəinki obyektiv deyil, ümumiyyətlə, reallıqdan uzaqdır. Paradoksal hal həm də ondan ibarətdir ki, ermənilər yeni-yeni hoqqalar uydururlar. Onların apardığı siyasət də belədir. Ermənistanın əvvəlki prezidentlərinin fikirlərinə baxsaq görərik ki, kifayət qədər ziddiyyətli və gülünc məqamlar orada öz əksini tapıb. Söhbət Levon Ter-Petrosyandan, Robert Köçəryandan və Serj Sarkisyandan gedir. Ancaq küçə yürüşü hesabına baş nazir olan Nikol Paşinyan isə həddən ziyadə cəfəng fikirlər səsləndirir.

Bunda siyasi məsuliyyət deyilən bir anlayış yoxdur. Paşinyan deyir ki, hər iki məsələ bizim şərəfli tariximizdir. Yəni Böyük Vətən Müharibəsi də, Njde də. Bütün bunlar heç bir tarixi və diplomatik məntiqə sığmır. Prezident İlham Əliyev TASS-a müsahibəsində çox vacib məqamlara toxundu. Çünki Qələbənin yubileyini bayram edən dövlət faşistə abidə qoymamalıdır. Ancaq Ermənistan bunu edir. Hansı ki, Njde əsirlərə qarşı qəddar hərəkətləri ilə ad çıxarıb. Bununla bağlı kifayət qədər arxiv sənədi var. Ona görə də bu biabırçılıqdır. Bütün bunlar Ermənistanda dövlət səviyyəsində riyakar siyasətin yeridilməsini sübut edir".

**Vidadi ORDAHALLI**

**Hər dəfə həyata keçirilən icra başçıları həbsi ilə bağlı cəmiyyətdə ciddi müzakirələr aparılır. Bunun əsas səbəbi həbslərin konkret sübut və dəlilləri ortaya qoymaqla həyata keçirilməsi, bununla bağlı konkret video subutların ortaya qoyulması ilə bağlıdır.**



# İcra başçısından çıxan "sandıq-sandıq" pullar - digər başçılar belə pulları qorumaq üçün hansı ehtiyat tədbirlərinə əl ata bilər...

## *Elşən Həsənov: "Korrupsiya ilə bağlı barələrində siqnallar olan şəxslərə ciddi nəzarət olmalıdır ki, onlar oğurladıqlarını gizlədə bilməsinlər"*

Məlumdur ki, DTX-nın həyata keçirdiyi son əməliyyat zamanı İmişlinin icra başçısı Vilyam Hacıyevin həbsi özündən əvvəl eyni taleyi yaşayan həmkarlarından xeyli fərqləndi. Təsadüfi deyil ki, məhz bu amil sadə vətəndaşlar, jurnalistlər, hətta siyasilər arasında geniş müzakirələrə yol açdı. Söhbət axtarış zamanı icra başçısının evindən çıxan külli miqdarda puldan gedir. Həmin pulları gözəyarı hesablayanda məlum olur ki, təkcə xarici valyuta ilə olan əskinaslar formasında evdə saxlanılan pulun miqdarı 10 milyona yaxındır. Haqlı olaraq vurğulanır ki, indi görün, bu adamın daşınmaz əmlak və ləl-cəvahirat formasında nə qədər yığımı var?! Eyni zamanda bu belə bir məntiqi də ortaya qoyur: Bir icra başçısının varidatı bu qədərdisə, onda uzun illər daha yuxarı postlarda çalışan yüksək çinli korrupsioner məmurlaraın nə qədər pulu var?

Ölkə başçısı son çıxışlarında vurğulayıb ki, rüşvət, korrupsiya yalnız icra hakimiyyəti strukturlarında deyil, belə hallar digər dövlət qurumlarında da var. Deməli, Vilyam Hacıyevdən daha çox miqdarda pul oğurlayan korrupsioner bütün bu siqnallardan sonra vəsaitlərini hansısa üsulla evindən çıxarıb gizlətməyə çalışacaq. Hətta istisna deyil ki, həmin külli miqdarda pulun ölkədən çıxarılmasına da cəhd ediləcək. Bütün bunların qarşısını almaq üçün korrupsioner məmurlara necə nəzarət edilməlidir? Onlara hansı formada nəzarəti gücləndirmək olar?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son vaxtlar bəzi rayonların İH strukturlarının rəhbərlərinin, onların müavinlərinin, digər sahələrdə fəaliyyət göstərən məmurların həbsi həqiqətən də ictimaiyyət tərəfindən maraqla qarşılanaraq izlənilir:"Bu istiqamətdə dövlətin, daha dəqiq ifadə etsək, Azərbaycan hakimiyyətinin atdığı addımlar, rüşvətxor, vəzifəsindən öz mənafeyi üçün sui-istifadə edən, dövlət büdcəsini talayan, insanların haqlarını yeyən və s. neqativ hallara bulaşmış məmurlara qarşı ortaya barışmaz mövqe qoyulması, əlbəttə ki, alqışlanmalıdır".

Partiya sədrininin sözlərinə görə, ilk növbədə özümüz üçün bir neçə sualı aydınlaşdırmaq lazımdır:"İlk olaraq elə özümüzə də birinci sualı verək: rəhbər vəzifələrə təyin ediləcək bu kadrlar hansı şəxsi, mənəvi, işgüzar xarakterlərinə görə ölkə başçısına təqdim edilibilər və onların təyinatında həlledici rolu kim oynayıb? Axı həbs edilən şəxslərin tərcümeyi-halına qısa nəzər salsaq, biz onların heç də vəzifə pillələri irəliləmədən, ən azından fəaliyyət göstərdikləri sahə üzrə iş təcrübəsi toplamadan təyinatının şahidi oluruq. Hələ bu azmış kimi, qısa müddət ərzində çayçılıqdan, bilet satmaqdan və s. kimi idarəetməyə ümumiyyətlə dəxli olmayan sahələrdən rəhbər vəzifələrə fantastik dərəcədə başgicəlləndirici karyera sıçrayışı etmək onlara necə nəsib olub?"

Elşən Həsənov hesab edir ki, bu kadrların uzun müddət törətdiyi əməllər, o rayonlarda vəziyyətə nəzarət etməli olan hüquq-mühafizə, güc strukturlarının nəzarətindən yayınmamalıydı:"Axı özbaşına, qanuna zidd olaraq atılmış addımlar yerli əhalinin narazılığına səbəb olduğu bir şəraitdə, yuxarıda adı çəkilmiş orqanların rayonlarda baş verənlərdən xəbərsiz olması, əlbəttə ki, inandırıcı görünmür. O zaman ortaya daha bir sual çıxır - onları, yumşaq desək, bu barədə susmağa nə vadar etmişdi?

Həbs edilən şəxslərin topladıqları sərvət barədə danışmaq istəməzdim. Səbəb sadədir - bu adamların işi-gücü qanunları pozaraq, insan haqlarını tapdalayaraq özlərinə sərvət toplamaq olub ki, bu da təbiidir. Bu adamlar dövləti maraqlar, milli maraqlardan savayı hansı əməlləri desəniz, etmişlər.

Bəlkə bir az da dərindən araşdırılsa, onların öz sərvətlərini inandıqları şəxslərin adlarına sənədləşdirməsinin şahidi olarıq ki, bu da başqa bir söhbətin mövzusudur.

Bütün bunların qarşısını necə almalı tipli üçüncü suala cavab isə çox sadədir. Təyinat məsələlərində daha diqqətli olmaq lazımdır. Bu müddət ərzində korrupsiya ilə bağlı barələrində siqnallar olan şəxslərə ciddi nəzarət olmalıdır ki, onlar oğurladıqlarını gizlədə bilməsinlər.

Yaddan çıxarmaq lazım deyil ki, ölkəni kadrlar idarə edir və ölkə hakimiyyətinə inamın qazanılmasında, imicin formalaşmasında kadrların rolu danılmaz və əvəzsizdir".

**Məhəmmədəli QƏRİBLİ**

**Heydər Əliyevin yenidən 1993-cü ildə hakimiyyətə qayıtması Azərbaycan Respublikasında yaranan ab-hava kitabxana işinə də öz müsbət təsirini göstərdi. Belə ki, muxtəlif sahələrdə oldugu kimi, Naxçıvan Muxtar Respublikasında da kitabxanalar yenidən quruldu, kitabxana işində böyük canlanma baş verdi.**

# Heydər Əliyev və Naxçıvan MR kitabxanalarının tarixində mühüm dəyişikliklər, islahatlar...



**Nəzakət Rza qızı İsmayılova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent Naxçıvan Dövlət Universiteti*

Hər şeydən əvvəl, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana işinə vəsaitin ayrılması, yeni binanın tikilməsi və avadanlıqlarla təmin edilməsi, kitab fondunun yeni ədəbiyyatla dövri nəşrlərə, elmi və referativ jurnallarla komplektləşdirilməsi kitabxananın beynəlxalq standartlar səviyyəsinə yüksəlməsinə səbəb oldu.

Azərbaycan müstəqillik əldə etdikdən sonra, keçid dövrünün hər cür çətinliklərinə baxamayaraq, ümummilli lider Heydər Əliyev qarşıya qoyduğu vəzifələri ardıcıl həyata keçirərək, Azərbaycanda olduğu kimi, Naxcıvan MR-də də çoxsaylı ictimai təşkilatların, siyasi partiyaların, müxtəlif cəmiyyətlərin və fondların yaranması, senzuranın ləğv edilməsi və s. mühüm əhəmiyyət kəsb etdi. Kitabxana işində də mühüm dəyişikliklər və islahatlar başladı. Bütün sahələrdə baş verən bu dəyişikliklər, vətəndaşların informasiya təminatında, kitabxana ifnormasiya cəmiyyəti quruculuğunda, Heydər Əliyevin Respublikamıza qayıdışından sonra Azərbaycan dövlətçiliyi ilə yanaşı, kitabxana işində də böyük dəyişikliklər başladı. Kitabxanalar ideoloji buxovlardan azad edildi. Milli ideologiyanın formalaşmasında və təbliğində kitabxanalar da yaxından iştirak etdilər.

Belə ki, elm və mədəniyyət müəssisələrinə dövlət büdcəsindən vəsait ayırmaqla yanaşı, onların dövlət mülkiyyəti, ümumxalq sərvəti kimi qorunub saxlanması haqqında qərarlar qəbul edildi. Sərəncamlar və fərmanlar imzalandı. 1995-ci il sentyabr ayının 29-da "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" Azərbaycan respublikasının Qanunu ilə bağlı fərman imzalandı. Bu fərmanın birinci bölməsində "Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı" verilir. Yerində verilmiş bu fərmandan aydın olur ki, kitabxanalarda saxlanılan sərvətlərin, onların binasının və sahələrinin özəlləşdirilməsi qəti qadağandır.

Beləliklə, kitabxanaların özəlləşdirilməsi, onların binalarının başqa məqsədlər üçün istifadə edilməsi ölkə Prezidentnin fərmanı ilə qadağan edildi. 1993-1999-cu illər kitabxana tarixində mühüm illər kimi yadda qaldı. 1996-cı ildə Azərbaycan Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrini qoruyub saxlamaq və əhaliyə xidmət işini yaxşılaşdırmaq üçün Azərbaycan Mədəniyyət Nazirliyinin qarşısında ciddi vəzifələr qoyulur. Bu mühüm sahələrdən biri də kitabxanaların maliyyələşməsi idi. Ölkədə hökm sürən maliyyə böhranına baxamayaraq, dövlət kitabxanalarının saxlanmasına və kitabxana işçilərinin əmək haqqının verilməsinə ayrılan vəsait qorunub saxlanıldı. Bu vəziyyət 1998-ci ilədək davam etdi. Bu ildən sonra dövlət büdcəsindən kitabxanalara yeni kitablar almaq, fondunu zənginləşdirmək və belə bir vəziyyət get-gedə yaxşılaşmağa doğru irəlilədi.

Ölkəmizdə özəl müəssisələrin yaradılması ilə əlaqədar olaraq yeni özəl kitabxanalar yaranmağa başladı. Bu iş, xüsusilə təhsil sahəsində özəl təhsil, kitabxana şəbəkəsi, ali və orta ixtisas məktəblərinin kitabxana şəbəkəsi ətrafında formalaşmağa başlayıb.

Müstəqillik dövründə baş verən hadisələr dövlətimizə kitabxana işi sahəsində yeni, müstəqil, demokratik siyasət yeritmək üçün şərait hazırladı. Beləliklə, müstəqil Azərbaycan dövlətinin kitabxana işi sahəsində siyasəti formalaşdı. Bu siyasət dünyanın qabaqcıl ölkələrinin kitabxana siyasətindən, ümumbəşəri dəyərlərdən bəhrələnən, müasir dövrün mahiyyətcə yeni olan ideyaları ilə silahlanan, gələcəyə baxan, perspektiv inkişafı təmin edə bilən bir siyasətdir. Kitabxana işi haqqında dövlət siyasətini formalaşdırmaq üçün yeni təfəkkür tərzi ilə düşünən insanların dünya baxışlarını analiz və sintez etmək, milli mentalitetimizə, soykökümüzə uyğun ənənələri ortaya çıxarıb ümumiləşdirmək əsasında hazırlamaq zəruri idi.

Cəmiyyətin formalaşmasında meydana gəlib təkmilləşən yeni dünya baxışı, yeni təfəkkür insanların dəyişməsinə səbəb olmuşdur. Ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin formalaşdığı kitabxana siyasəti öz əsas prinsiplərini və vəzifələrini müəyyənləşdirirkən bilavasitə dövlət siyasətinə əsaslanmalı, onun mahiyyətinə uyğunlaşmalıdır. Dövr, zaman irəlilədikcə, bütün sahələrdə olduğu kimi, kitabxana işi də inkişaf və tərəqqi edərək, dünya təcrübəsindən bəhrələnərək müasir dövrün tələbatına cavab verməlidir. Müasir kitabxanalarda elektron kataloqdan istifadə çox əhəmiyyətli idi.

Araşdırmalar göstərir Naxcıvan Muxtar Respublikasında müstəqillik illərində kitabxanalarda elektron kataloqun sənəd dövriyyəsi dayanıqlı və davamlı inkişafın möhkəmləndirilməsi, mövcud təcrübəyə əsaslanaraq yeni texnologiyaların, ideyaların, biliklərin müxtəlif sahələrinə tətbiq edilməsinə yönəlib. Ölkəmizin inkişafı üçün olduqca əhəmiyyətli rola malik olan bu mühüm prosesə dövlət tərəfindən diqqət artırılır, bu sahənin inkişafına xüsusi əhəmiyyət verilir. Təsadüfi deyil ki, Azərbaycanın son illər artan maliyyə imkanları ölkə rəhbərliyi tərəfindən innovasiya texnologiyalarının inkişafına xidmət edən təhsil və elm sahələrinə diqqətin artırılması ilə müşahidə olunur.

Ötən illər ərzində Naxçıvan Muxtar Respublikasında da kitabxana işinin müasir standartlar səviyyəsində qurulması diqqət mərkəzində saxlanıb və muxtar respublikada kitabxanaların elektronlaşdırılması üçün məqsədyönlü addımlar atılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 19 aprel 2012-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, Naxçıvan Muxtar Respublika Kitabxanasının bazasında Elektron kitabxana yaradılıb. 2012-ci il dekabrın 3-də Məmməd Səid Ordubadin 140 illiyi və ədibin adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubiley tədbirləri keçirilib, elektron kitabxananın təqdimatı olub. Elektron arxiv və elektron kitabxana sisteminin yaradılması istiqamətində növbəti addım isə Naxçıvanşünaslıq Mərkəzinin istifadəyə verilməsi olub. Naxçıvanşünaslığa aid ələdə olunan kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanması, tədqiq və təbliğ edilməsi naxçıvanşünaslıqla məşğul olan ayrıca bir mərkəzin yaradılmasını zərurətə çevirmişdi. Bu zərurət əsas götürülərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə Naxçıvanşünaslıq Mərkəzi yaradılıb, mərkəz üçün ayrıca bina ayrılıb və əsaslı surətdə yenidən qurulub. Mərkəz, onun kitabxanası və arxivi ən müasir informasiya avadanlıq və daşıyıcıları ilə təmin olunub, elektron kitabxana və elektron arxiv yaradılıb.

Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanası Muxtar Respublika elmi kitabxanaları icərisində ən irihəcmli kitabxanadır. Kitabxanada aparılan yenidənqurma işləri zamanı burada müasir surətköçürmə aparatı, elektron informasiya köşkü, əsas və ehtiyat server quraşdırılıb, 20 oxucu yeri yaradılıb. Muxtar respublikamızda daha bir elektron kitabxananın - Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Elektron kitabxanasının açılışı olub. Elektron kitabxananın yaradılması məqsədilə 12 terabayt yaddaşı olan əsas və ehtiyat server quraşdırılıb, elektron oxu zalı üçün 6 oxucu yeri yaradılıb. Kitabxana lazımi avadanlıqlarla təmin edilib, burada surətköçürmə aparatı, printer, elektron daşıyıcılarda olan məlumatların vizual və səsli izlənməsi üçün televizor və mobil elektron lövhə qoyulub. Kitabxanaya fiber-optik kabel çəkilib, daxili şəbəkə yaradılıb və www.e-kitab.ameanb.nmr.az internet səhifəsi hazırlanaraq təqdim olunub.

Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanası 1996-cı ildən etibarən daha da təkmilləşdirilərək inkişaf etdirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qayğısı sayəsində Naxçıvan Dövlət Universitetinin kitabxanası üçün yeni beşmərtəbəli bina inşa edilib. Beləliklə, kitabxana 2004-cü ilin may ayında Avropa standartlarına uyğun beşmərtəbəli binaya köçürülüb. Bundan sonra kitabxananın tarixində yeni inkişaf mərhələsi başlanıb, oxuculara xidmət işində mütərəqqi üsullar tətbiq edilib.

Naxçıvan Dövlət Universitetinin zəngin maarifçilik ənənələrinə malik olması Naxçıvan Muxtar Respublikasında yüksək ixtisaslı kadrların yetişdirilməsinə, elmin bütün formalaşmasına və bütövlükdə regionun tərəqqisinə öz müsbət təsirini göstərir. Naxçıvan Dövlət Universitetinin çoxsaylı məzunları içərisində Azərbaycan Milli Dövlətçilik quruculuğun ən müxtəlif sahələrində yaxından iştirak edir. Respublikamızda və onun hüdudlarından kənarda elmi-mədəni potensialın güclənməsində layiqli töfhələr verir.

Müstəqillik illərində xarici dillərdə olan ədəbiyyat fondu surətlə azalırdı. Bu kitabxanada elmi potensiala malik olan elmlərin inkişafında xüsusi əhəmiyyəti olan referatif jurnalların, informasiya nəşrlərinin alınması tamamilə dayanıb. Onu da qeyd etmək yerinə düşər ki, kitabxana keçmiş SSRİ dağılandan sonra pullu məcburi nüsxələrdən də məhrum edilmişdi. Respublikanın nəşriyyat sistemi tamamilə müflisləşmiş, kitab nəşri işi iflic vəziyyətə düşmüşdü. Bütün bunlar kitabxanaların yeni ədəbiyyatla komplektləşdirməsi işini, demək olar ki, dayandırmışdı.

H.Əliyevin yenidən 1993-cü ildə hakimiyyətə qayıtması ilə Azərbaycan Respublikasında yaranan ab-hava kitabxana işinə də öz müsbət təsirini göstərdi. Belə ki, muxtəlif sahələrdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da kitabxanalar yenidən quruldu, kitabxana işində böyük canlanma baş verdi. Hər şeydən əvvəl, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana işinə vəsaitin ayrılması yeni binanın tikilməsi və avadanlıqlarla təmin edilməsi, kitab fondunun yeni ədəbiyyatla, dövri nəşrlərlə, elmi və referativ jurnallarla komplektləşdirilməsi kitabxananın Avropa standartları səviyyəsinə yüksəlməsinə səbəb oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü ildə "Azərbaycan Milli Ensiklopediyasının nəşri", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi", "Dünya ədəbiyyatı nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi" və "Dünya ədəbiyyatı kitabxanası seriyasının 150 cildlik nəşr olunması haqqında" sərəncamlar imzalayaraq yenidən çap edilən kitabların bütün kütləvi, ali və orta tədris müəssisələrindəki kitabxanalara verilməsini, həmçinin bu kitabların mətnlərinin elektron daşıyıcıları və internet vasitəsi ilə yayılmasını təmin etmək, latın qrafikasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanasının yaradılması" haqqında tapşırıqlar verilir.

Son illərdə ölkəmizdə kitabxana işinin elmi əsaslar üzərində yenidən qurulması kitabxanaların yeni ədəbiyyatla komplektləşdirilməsi, maddi texniki bazasının möhkəmləndirilməsi, maliyyə işinin qaydaya salınması və modernləşdirilməsi, informasiyalaşması kitabxana informasiya texnologiyası ilə təmin edilməsi, internetə qoşulması və s. sahələrdə olan irəliləyişlər tələb edir ki, kadr potensialı genişlənsin dövrün tələbinə uyğun qurulsun. Məhz bu baxımdan Respublika Prezidenti İlham Əliyevin həyatı keçirdiyi siyasətin böyük əhəmiyyəti var. Belə ki, son illərdə Azərbaycan Respublikasında kitabxana işinin inkişaf etdirilməsinə dair bir çox sərəncamlar imzalanıb. Bunlardan ən genişi və kitabxanaların uzunmüddətli inkişafına dəstək olan 6 oktyabr 2008-ci ildə Respublika Prezidenti tərəfindən imzalanan "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü ilində inkişafı üzrə Dövlət Proqramı"dır. Bu Dövlət Proqramında kitab və kitabxana mədəniyyətinin gələcək inkişaf istiqamətinə xalqımızın durmadan artan informasiya təmiantının ödənilməsinə kitabxana işinin daha da inkişafına yenidən qurulmasına müasir kitabxananın ən başlıca vəzifəsi oxuculara kitabxana və informasiya xidmətini yüksəltmək kitabxanaların dünya standartları səviyyəsinə qaldırmaq eyni zamanda dünya kitabxanaçılıq təcrübəsindən bəhrələnmək, ənənəvi kitabxanaçılığın müasir kitabxanaçılıq əvəz edilməsinə yönəldilib.

Muxtar Respublikada Naxçıvan Dövlət Universiteti ulu öndərin ideyalarının, irsinin layiqli varisi, davamçısı və təbliğatçılarından biri kimi fəaliyyət göstərir. Artıq 20 ildən artıqdır ki, Naxçıvan Dövlət Universitetində "Heydər Əliyev Universitet kitabxanası" yaranıb, milli dövlətçilik, milli düşüncə və tərbiyə məktəbi olaraq fəaliyyət göstərir. Müstəqil dövlətçiliyimizin möhkəmlənməsi yolunda məqsədyönlü fəaliyyətin təzahürü kimi Heydər Əliyev irsinin və dövlətçiliyimizin öyrənilməsi həmişə diqqətdə olacaq.

# Azərbaycanın virusla mübarizədə hazırkı mövqeyinə dəqiq qiymət verildi - "Biz birinci mərhələdə qalib gəlmişik"...

## *Bəhruz Quliyev: "Hadisələr göstərdi ki, Azərbaycan, sözün əsl mənasında, bu pandemiya ilə mübarizənin birinci mərhələsindən üzüağ, alnıaçıq çıxdı"*

**Azərbaycan dövlətinin pandemiyaya qarşı önləyici və məqsədyönlü mübarizə tədbirləri həyata keçirməsi nəticəsində dünyaya nümunə olan nailiyyətlər əldə edə bilmişik. Virusun ilk titrəyişlərinin hiss edildiyi dövrlərdən başlayaraq indiyə kimi ölkəmiz bu istiqamətdə genişşaxəli tədbirlər həyata keçirir və bu tədbirlərin də əsas məqsədi vətəndaşların sağlamlığını qorumaq, virusun təsirini sıfıra endirməkdir.**

"…Yeni xəstəxanaların tikintisi, əlbəttə, gələcəyə hesablanıb. Çünki hazırda mövcud xəstəxana fondu bizim tələbatımızı ödəyir və 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin sərəncamına verilibdir, o cümlədən, ən yeni və ən müasir 575 çarpayılıq "Yeni klinika". Orada hazırda xəstələr müalicə olunurlar. Bu, gələcəyə hesablanmış düzgün addımdır, çünki heç kim bilmir pandemiya nə qədər davam edəcək, heç kim bilmir bunun gələcək mərhələləri nədən ibarət olacaq. Ona görə biz tam hazır olmalıyıq.

Bizim atdığımız bütün addımlar qabaqlayıcı xarakter daşıyır. Bu xəstəxananın və bundan sonra buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub. Bütün bu addımlar qabaqlayıcı xarakter daşıyırdı və məhz buna görə hesab edirəm ki, koronavirusla mübarizədə biz birinci mərhələdə qalib gələ bilmişik. Ancaq mübarizə davam edir, koronavirus heç bir yerə qeyb olmayıb, dolaşır və dolaşacaq və bunu hər kəs bilməlidir". Bu fikirləri mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışındakı çıxışında Prezident İlham Əliyev bildirib.

Azərbaycan dövlətinin koronavirusla mübarizənin birinci mərhələsində qalib gəlməsi faktına şərh verən "Səs" qəzeti və eyniadlı informasiya agentliyinin rəhbəri, tanınmış siyasi icmalçı Bəhruz Quliyev bizimlə söhbətində bildirdi ki, Azərbaycan dövləti koronavirusla mübarizədə ortaya tamamilə fərqli bir mövqe, yanaşma qoyub: "Burada həm karantin rejiminin tətbiq edilməsini, eyni zamanda, sosial təcrid prosesinin, bunlardan əvvəl önləyici tədbirlərin həyata keçirilməsini və s. qeyd edə bilərəm. Bilirsiniz ki, koronavirusla mübarizə ilə bağlı dövlət tərəfindən xüsusi plan təsdiqləndi. Azərbaycan dövləti proqram şəklində konseptual olaraq öz vətəndaşını qorumaq üçün mərhələli şəkildə proqramlar həyata keçirdi. Bunun tərkibində bir sıra məsələlər vardı. Sosial izolyasiya dövründə evdə qalan insanlar, istər-istəməz, hansısa sosial problemlərlə qarşılaşa bilərdi. Bu təbii haldır. İnsanlar evdə qalarkən Azərbaycan dövləti onları minimal əməkhaqqı ilə təmin etmək məqsədilə maddi yardım proqramları həyata keçirdi. Əhalinin sosial cəhətdən zəif təbəqələrinə maddi yardımlar göstərilməsi prosesinə sahibkarların, ictimai qurumlatın cəlb edilməsi, eləcə də cənab Prezidentin təşəbbüsü və sərəncamı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, bu fonda sahibkarlar da daxil olmaqla, cəmiyyətin digər təbəqələrinin də maliyyə yardımları göstərməsi özü göstərdi ki, koronavirusla mübarizədə cəmiyyətin və dövlətin hədəfi birdir. Bütün bunlar da daxil olmaqla, verilən qərar və tapşırıqların icrası da göstərdi ki, mübarizədə hamı eyni mövqe nümayiş etdirə bildi. Ona görə də cənab Prezidentin dediyi kimi, biz koronavirusla mübarizənin birinci mərhələsini qələbə ilə başa vurduq. İtki sayını bütün dünya ölkələri ilə müqayisə etdikdə birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan pandemiya ilə mübarizənin birinci mərhələsini az itki ilə başa vurdu. Ümumiyyətlə, dövlətin məqsədi öz vətəndaşını qorumaqdır. Dəfələrlə demişəm, indi də deyirəm ki, dövlətin ən qiymətli sərvəti onun vətəndaşıdır. Görülən bütün tədbirlər öz vətəndaşının sağlamlığını qorumağa xidmət etdi. Ona görə də Azərbaycan modeli dünyada qəbul olundu. Azərbaycan həm də koronavirusla mübarizədə nümunəvi dövlət kimi özünü təsdiq etdi".

B.Quliyev qeyd etdi ki, bu özünü həm vətəndaşların sosial dayanıqlığının təmin edilməsi üçün Azərbaycan dövlətinin həyata keçirdiyi çoxşaxəli sosial proqramların, həm də sosial izolyasiya tədbirlərinin və müxtəlif modul tipli xəstəxanaların inşasının, ayrı-ayrı böyük xəstəxanaların əsaslı təmir edilərək istifadəyə verilməsinin timsalında təsdiqlədi. "Virusun ortaya qoyduğu şərtlər daxilində dövlətin atdığı məqsədyönlü addımlar çox təqdirəlayiqdir və bu təkcə vətəndaşlar tərəfindən deyil, beynəlxalq aləm tərəfindən də çox yüksək qiymətləndirildi. Mübarizə tədbirləri kompleks şəkildə həyata keçirildi. Bir tərəfdən modul tipli xəstəxanaların tikintisinə qərar verildi, artıq onlardan birinin açılışı oldu. Digər tərəfdən, maska fabrikinin açılması, eyni zamanda da sosial izolyasi, dezinfeksiya məsələsinin davam etdirilməsi, ailələrin sosial problemlərinin aradan qaldırılması istiqamətində görülən tədbirlər, sahibkarlara dəyən ziyanın ödənilməsi ilə bağlı verilən qərarlar, qəbul edilən proqramlar - bunların hər biri sırf yeni Azərbaycan modelini ortaya qoydu. Hadisələr göstərdi ki, Azərbaycan, sözün əsl mənasında, bu pandemiya ilə mübarizənin birinci mərhələsindən üzüağ, alnıaçıq çıxdı.




*"...onlar koronavirusla mübarizənin birinci mərhələsindən böyük itki ilə çıxıblar"*

İkinci mərhələ bizə hansı şərtləri diqtə edir? Bilirsiniz ki, COVID-19 adlı bir pandemiya dünyaya özünün şərtlərini diqtə etdi və dünya ölkələri koronavirusun diqtə etdiyi şərtlər daxilində müəyyən işlər apardılar ki, virusla mübarizədə uduzmasınlar, ona qalib gəlsinlər.

Bəzi dövlətlər koronavirusla mübarizədə virusun diqtə etdiyi şərtlərə əməl etmədiklərinə, o şərtlərə qarşı ciddi mübarizə planı qurmadıqlarına görə çox böyük itki verdilər. Biz Azərbaycanla bir sıra ölkələri müqayisə etdikdə görürük ki, onlar koronavirusla mübarizənin birinci mərhələsindən böyük itki ilə çıxıblar. Amma Azərbaycanda isə karantin rejiminin yumşalma prosesi gedir və proses də mübarizənin birinci mərhələsinin başa çatdığına işarədir. Lakin vətəndaşlar öz məsuliyyətini dərk etməsə və dövlətin bu sahədə apardığı mübarizə tədbirlərinə dəstək verməsə, bu belə çıxır ki, artıq koronavirus pandemiyasının yenidən alovlanmasına xidmət edə, bunun nəticəsində də karantin rejiminin şərtləri yenidən sərtləşdirilə bilər.

**Ona görə ki, dövlətin əsas məqsədi vətəndaşların sağlamlığını, Azərbaycan ailəsini qorumaqdır. Bu nəticələr göstərsə ki, yoluxanların sayı get-gedə artır, onda dövlət məcbur olub karantin rejiminin sərtləşdirilməsi ilə bağlı addım atacaq" - deyə B.Quliyev vurğuladı.**

*İradə SARIYEVA*

# Dünyada misilsiz - Azərbaycanda müharibə veteranlarına bu il 900 dollar mükafat veriləcək...

**"Biz öz veteranlarımızı qorumalıyıq. Təəssüf ki, onların sayı ilbəil azalır. Adətən, mayın 9-da mən həmişə veteranlarla görüşürəm, biz söhbət edirik, həlak olanların xatirəsini ehtiramla yad edirik, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq.**



Hər dəfə onlarla ünsiyyətdə olanda, sanki enerji alırsan. Özü də onların çoxunun yaşı 90-ı keçib, hətta 100-ü haqlayanlar da var. Lakin əvvələn, fiziki baxımdan onlar möhkəm olduqlarını nümayiş etdirirlər. Ən başlıcası, onların mənəvi ruhu, nikbinliyi və həyatsevərliyi, əlbəttə, bizi heyrətləndirir, təəccübləndirir və biz onlarla yalnız fəxr edə bilərik. Biz hər il veteranlar üçün mükafatlar ayırırıq. Bu il həmin mükafatın məbləği təxminən 900 dollar, manatla hesablasaq 1500 manat olacaq. İl ərzində də onların problemlərini həll edirik".

## *Rüfət Quliyev: "Bu gün şəhid ailələrinin, müharibə veteranlarının sosial problemlərinin həlli dövlətin daim diqqət mərkəzindədir"*

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Mir" televiziya kanalına müsahibəsində deyib. Prezident qeyd edib ki, müstəqilliyin ilk illərində, millətə zidd olan Xalq Cəbhəsi rejimi hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May günü bayram təqvimindən silinmişdi. Müharibə veteranları mənəvi terrora məruz qalırdı, kütləvi informasiya vasitələrində onlara qarşı qəddar kampaniya aparılırdı. Yalnız Heydər Əliyev hakimiyyətə gələndən sonra 9 May günü bayram təqvimində bərpa olundu. O vaxtdan həmin gün dövlət bayramıdır. Bu qeyri-iş günüdür. Ədalət zəfər çaldı.

Qeyd edək ki, ölkəmizdə hər zaman müharibə veteranlarına xüsusi diqqət olub və bu gün də var.

Millət vəkili Rüfət Quliyev qeyd etdi ki, şəhid ailələrinin, müharibə əlillərinin və veteranların tibbi-sosial problemlərinin həlli istiqamətində dövlətin diqqət və qayğısı artır: "Danılmaz faktdır ki, bu gün şəhid ailələrinin, müharibə veteranlarının, əlillərin sosial problemlərinin həlli dövlətin daim diqqət mərkəzindədir. Cənab Prezidentin bu təbəqələrdən olan insanların sosial rifah halının yaxşılaşdırılması məqsədilə ardıcıl imzaladığı fərman və sərəncamlar, dövlət başçısının tapşırığı əsasında ildən-ilə gücləndirilən mühüm sosial proqramlar onların etibarlı sosial müdafiə sistemi, hərtərəfli dövlət qayğısı ilə əhatə olunmalarına şərait yaradıb".

Millət vəkilinin sözlərinə görə, müharibə veteranlarına hər il mükafat verilir. Bu il onlara veriləcək mükafat 1500 manat dəyərində olacaq. Bu məbləğin müharibə veteranlarının sosial problemlərinin həll olunmasında rolu olacaq.

***Günel CƏLİLOVA***

# Koronavirusla mübarizə dövründə Azərbaycanın sosial məzmunlu növbəti addımı - qorunan əmanətlərin faizi 12-yə qaldırıldı...

**Xəbər verildiyi kimi, manatla olan əmanətlərin sığortalanması faizi artırıldı. Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası Maliyyə Sabitliyi Şurasının tövsiyəsi əsasında, Azərbaycan Mərkəzi Bankı ilə razılaşdırılmaqla 1 iyun 2020-ci ildən milli valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddinin 10%-dən 12%-ə qaldırılması barədə qərar qəbul edib.**



## *Natiq Cəfərli: "Bu qərar əmanətçilərə sərf edir"*

Qeyd edək ki, xarici valyutada olan qorunan əmanətlərin illik faiz dərəcəsinin yuxarı həddi əvvəlki qaydada 2,5 faiz təşkil edir.

Milli valyutada qorunan əmanətlərin faiz dərəcəsinin yüksəlməsi barədə fikir bildirən iqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, Mərkəzi Bank əmanətçiləri sakitləşdirmək üçün əmanətlərin sığortalanması faizini 10 faizdən 12 faizə qaldırdı: "Yəni indi vətəndaşların 12 faizlə qoyduğu əmanətlər də sığortalanacaq, əvvəl bu hədd 10 faiz idi. Bu qərar əmanətçilərə sərf edir, amma bu qərardan sonra kreditlərin faizi də artacaq, bankların kredit portfelində əmanətlərin payı 70 faiz civarındadır. Zatən, ölkədə kredit faizləri çox yüksəkdir, bu qərardan sonra daha da yüksələcək. Amma normal ölkələr böhrandan çıxmaq üçün tam tərsini edir. Kreditləri ucuzlaşdırır ki, iqtisadiyyat canlansın".

*"...ölkədə kredit faizləri çox yüksəkdir, bu qərardan sonra..."*

***Günel CƏLİLOVA***

# "Jalal-İ" tədris mərkəzinin vəzifəli şəxslərinin qanunsuz əməlləri üzə çıxdı

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatına görə, bəzi sahibkarların vergi və sosial sığorta ödənişlərindən yayınmaları nəticəsində iqtisadiyyatın inkişafına kölgə sala biləcək korrupsiya və rüşvətxorluq kimi neqativ amillərə, müxtəlif sahələrdə əhalini narahat edən korrupsiya hüquqpozmalarına və onları törətmiş vəzifəli şəxslərə qarşı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ardıcıl və təxirəsalınmaz tədbirlər həyata keçirilir.**

Belə tədbirlərdən biri ki-mi,"Jalal-İ" tədris mərkəzinin vəzifəli şəxslərinin qanunsuz hərəkətlərinə dair Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş müraciət yoxlanıb.

Araşdırmalarla tədris mərkəzinin vergi orqanlarında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmamasına, mərkəzin direktoru Cəlal Məhərrəmovun hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs kimi vergi orqanlarında dövlət qeydiyyatından keçməklə həmin tədris mərkəzinin fəaliyyətini təşkil etməsinə, 12 repetitor müəllimlə hər birinə 250 manat məbləğində aylıq əməkhaqqı müəyyən edilməklə əmək müqaviləsi bağlamasına əsaslı şübhələr müəyyən edilib.

İstintaqla, həmçinin, mərkəzdə təhsil alan tələbələrin təhsil haqlarının nağd qaydada ödəməsinə, müəllim və digər işçilərin əmək haqlarını C.Məhərrəmovun 2018-2020-ci illər üzrə qeydiyyat jurnallarına imza etməklə nağd qaydada götürməsinə şübhələr üçün əsaslar müəyyən edilib.

Prokurorluq əməkdaşları tərəfindən mərkəzə məxsus baş ofisdə və filiallarda, habelə C.Məhərrəmovun avtomobilində və yaşayış yerində axtarış aparılıb, mərkəzin fəaliyyəti ilə əlaqədar sənədlər, pul vəsaitlərinin qəbul edilməsi və verilməsi haqqında jurnallar, mühasibatlıq sənədləri və texniki vasitələr aşkar edilərək götürülüb.

Toplanmış materiallarda C.Məhərrəmovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək işə qəbul etdiyi müəllimlər və digər işçilərlə əmək müqaviləsi bağlamamasına, tələbələr tərəfindən ödənilən təhsil haqlarını bank vasitəsilə deyil nağd qaydada qəbul edərək vergi və sosial sığorta ödənişlərindən yayındırılmasına şübhələr üçün əsaslar müəyyən edildiyindən, faktla bağlı Cinayət Məcəlləsinin 162-1.1 (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə bütün halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyən edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Qələbənin 75 illik yubileyi ilə bağlı bütün dünyada, eləcə də Azərbaycanda. hər il olduğu kimi, bu il də dövlət səviyyəsində geniş tədbirlər keçirilir. Torpaq uğrunda,Vətən yolunda canından keçən insanların xatirəsini yaşatmaq, əbədiləşdirmək, adını, şöhrətini nəsildən-nəslə çatdırmaq müqəddəs işdir.**

# Torpaq, uğrunda ölən varsa Vətəndir...



*”Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir”.*

**Heydər Əliyev**

1941-ci ildən 1945-ci ilədək davam edən müharibə zamanı ordu sıralarına Azərbaycandan 720 min nəfərdən çox insan cəlb edildi. Onlardan 320 mindən çoxu vətən uğrunda gedən savaşda qəhrəmancasına həlak oldu. Həlak olanların arasında Göyçə mahalından olan Məhərrəmov İdris Şirin oğlu da var idi. O, 1894-cü ildə Göyçə mahalının Zərkənd kəndində sənətkar ailəsində anadan olub, ilk ustad dərsini 12 yaşında ikən atası Aşıq Şirindən alıb, Aşıq Ələsgərdən, Aşıq Musadan saz-söz sənətinin incəliklərinə yiyələnib. Səksəndən artıq saz havasına bacarıqla yiyələnib, otuz beş dastanı hər dəfə yeni əlavələrlə danışarmış.

Ailə arxivimizdə qorunub saxlanan azərbaycan, rus, erməni dilində olan 1938-1941-ci illəri əhatə edən arayışların verdiyi məlumata görə Aşıq İdris Böyük Vətən müharibəsinə gedənə qədər Basarkeçər rayonunun "Aşıqlar birliyinin" sədri olub. Aşıqların I və II qurultaylarında iştirak edərək İncəsənət xadimi fəxri adına layiq görülüb. 1941-ci ildə könüllü olaraq Böyük Vətən müharibəsinə gedib (baxmayaraq ki, bir neçə dəfə hərbi komissarlıq tərəfindən geri qaytarılıb) və müharibədən itkin düşüb.

Arxiv materialları Aşıq İdrisin həm yaradıcı, həm də ifaçı sənətkar olduğunu, Göyçə mahalında, Kəlbəcər kəndlərində ad çıxardığını, məlahətli zil səsi, səsininləngərindən otaqların pəncərə şüşələrinin cingildəşməsi, zəngulələsinin zərbindən otuzluq lampanın sönməsindən yazılır.

Döyüşçü aşıq qoşma ilə həyat yoldaşı Zərnişan xanıma göndərdiyi məktubda tezliklə qələbə çalıncağından,övladlarına məhəbbətindən belə yazırdı:

*Zərnişanım, gözlə, gözlə yolumu,*
*Səndən üzülməmiş gümanım mənim.*
*Oğul əmanəti, qız əmanəti-*
*Yaxşı saxla, dinimimanım mənim.*
*Qoyma ürəyində arzu pasdana,*
*Göz yaşından tər yanağın isdana.*
*Dikilsin yoluma gözün mastana,*
*İstəkli sevgilim, cananım mənim.*
*Uzaqdaqn -uzağa sən məni dinlə*
*Ucalır avazım hey pillə-pillə.*
*Yayınmır düşmənə atdığım güllə,*
*Əyilməz ərlərdir həyanım mənim!*



**Aşıq İdris, həyat yoldaşı Zərnişan xanım, dayısı oğlu Heydər və onun həyat yoldaşı Göyçək xanım**

Aşıq İdris çox vaxt konsertlərə və toylara balaban ifaçısı Cabbar Fərzəliyev, dəf ifaçısı Xanbaba Əliyevlə gedərmiş.

Arayışlarda olan məlumatlar və ailə arxivimizdə qorunub saxlanan şəkil də bunu təsdiqləyir. Bu arayışların arasında 1939-cu il 11-ci ay tarixli sənəd çox maraqlıdır. Orada yazılır:"Basarkeçər rayonunun maarif şöbəsinin nəzdində təşkil olunmuş aşıqlar təşkilatının heyət üzvləri və təşkilat üzvləri Aşıqlar təşkilatının sədri İdris Məhərrəmov təşkilatın sədrinin müavini Bəhmən Qarayev, üzvləri Nəcəf Məmmədov, Talıb Məmmədov, Ziyad Nadirov.

**Təşkilat üzvləri:**
*Hüseyn İskəndərov*
*Yunus (Babacan)*
*Kərəm Vəliyev (Pənbək)*
*Səyyaf Əvəzov*
*Lətif Hüseynov (Qaraqoyunlu)*
*Cahad Nağıyev*
*Qabil Vəliyev (Zərzəbilli)*
*Cabbar Fərzəliyev (Kəlbəcər)*
*Xanbaba Əliyev*
*Mikayıl Nəsibov*
*Xudu Namazov (Sorucan)*
*Nağı Bədəlov (Kəsəmən)*
*Qərib İsmayılov (Zod)*

Aşıq İdris haqqında olan 1938-1941-ci illəri əhatə edən Azərbaycan, rus, erməni dilində olan arayışlardan əldə etdiyimiz məlumata görə, Aşıq İdris Azərbaycanın şəhər, rayon, kəndlərini qarışqarış gəzərək zəhmətkeş xalq qarşısında konsertlər verib.

Bu arayışlardakı maraqlı faktlardan biri də odur ki, orada qeyd olunan yer adları azərbaycan adlarıdır. Lakin bədnam qonşularımız sonradan o yer adlarını dəyişib erməniləşdiriblər.

Bu arayışlardan bizə məlum olur ki, o ən çox Kəlbəcər, Qubadlı, Laçın, Zəngibasar, Tərtər, Goranboy, Ağcabədi və s. rayonlarda olub. Həmçinin bu sənədlər onun Basarkeçər rayonunun aşıqlar birliyinin sədri olmasını, incəsənət xadimi fəxri adının verilməsini də təsdiqləyir. Aşıq İdrisin vala yazılmış səsi də olduğunu söyləyirlər. Rəhmətlik atam Bahadur müəllim söyləyirdi ki: "uşaq yaşlarımda evimizdə qrammafonda atamın səsi yazılmış vala dəfələrlə qulaq asmışam". Biz səsyazma arxivinə müraciət etdik.Təəssüf ki, nə bu val, nə də Aşıq İdris hqqında heç bir məlumat əldə edə bilmədik.

Nənəm Zərnişan xanımın söylədiyinə görə, babam Aşıq İdris tez-tez İrana, Türkiyəyə də səfər edərmiş. Bu ölkələrdə tikilən evləri görən babamız ilk dəfə olaraq Göyçə mahalında, yeni Zərkənddə ikimərtəbəli daş ev tikdirib. Təəssüflər ki, indi bu evlərdə bədnam qonşularımız yaşayır. Evin yerləşdiyi ərazini isə kilsə ediblər.

Aşıq İdrisin 2 qardaşı olub: Yunus və Ələs.Qardaşı Yunus da İkinci Dünya müharibəsinə gedib və 1943-cü il fevral ayında itkin düşüb.

Aşıq İdrisin 7 övladı olub: Maral adlı bir qızı, Şəmdin, Xasay, Surxay, Bahadur, Qəzənfər, Məmməd adlı 6 oğlu . Qızı Maral atasının qara xəbərini eşitdikdə, bu acı xəbərə dözməyib 12 yaşında vəfat edib. Həyat yoldaşı Zərnişan xanım altı oğlunu minbir əzabla böyüdüb, oxudub, evləndirib, oğul-uşaq sahibi edib, oğlanlarından ikisinə ali təhsil verib. Oğlu Bahadur əvvəl Politexnik texnikumunun, sonra isə Politexnik universitetinin mexanika bölməsinin "Avtonəqliyyat" fakultəsini, kiçik oğlu Qəzənfər isə BDU-nun geologiya fakultəsini bitirib. Oğlanlarından Surxay və Qəzənfər sazda, Bahadur isə qarmonda həvəskar ifaçı kimi çalmağı bacarırdı. Bahadur aşıq havalarını qarmonda özünə məxsus gözəl bir tərzdə ifa edərdi. Bahadurun riyaziyyat elminə hədsiz dərəcədə marağı 1977-ci ildən başlayaraq "Riyaziyyatdan şifahi vurma qaydaları" əsəri üzərində işləyərək 1987-ci ildə "Maarif" nəşriyyatı tərəfindən "Riyaziyyatdan şifahi vurma qaydaları" adlı ilk kitabını nəşr etdirib. 2002-ci ildə isə bu əsərini daha da təkmilləşdirib, ikinci bir kitabını da nəşr etdirib. Amansız ölüm Bahadur müəllimin arzularını yarımçıq qoydu. Yazdığı bu əsəri müdafiə etmək ərəfəsində vaxtsız (2002-ci il 8 dekabır) dünyasını dəyişdi.

Bahadur müəllimin oğlu Natiq isə sazda mahir ifaçı olmasa da, bu gün nağarada mahir ifaçılardan biridir. 2001-ci ildə o, beş nəfərdən ibarət "Natiq Ritm Qrupu"-nu yaratdı və bununla da yeni azərbaycan nağarasının və rtmlərinin əsasını qoydu. Azərbaycan qədim musiqi aləti olan nağaranı həm milli, həm də beynəlxalq rtm alətləri ilə sintez edərək dünya miqyasında tanınmasına nail oldu. Azərbaycan rtmlərinin sayını dəfələrlə artmasında böyük zəhməti oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 17 sentyabr 2007-ci ildə əməkdar, 27 may 2018-ci ildə isə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının "Xalq Artisti" fəxri adına layiq görüldü.

Bəşər övladı həmişə öz keçmişinə,yaddaşına qırılmaz tellərlə bağlı olub. Bu indi də belədir, həmişə də belə olacaq.Yaddaşı olmayan xalqın heç vədə gələcəyi də ola bilməz. Yaddaş dünənlə bu gün, başqa sözlə desək, gedənlə gələn arasında körpüdür - mənəvi körpü. Vətən uğrunda canından keçən insanların xatirəsini yaşatmaq bizim üçün müqəddəs bir işdir. Bu insanların ruhu qarşısında baş əyir, ruhlarına Uca Yaradandan rəhmət diləyirik.

***Rübabə ŞİRİNOVA***
***Aşıq İdrisin nəvəsi, AMEA Əlyazmalar İnstitutu, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

**Cari ildə iqtisadi müstəvidə mühüm dəyişikliklər yaşanan sahələrdən birinin də bank sektoru olacağı gözlənilir. Yayılan məlumatlardan, verilən rəsmi açıqlamalardan da bəlli olur ki, Azərbaycanın bank sektorunda sağlamlaşdırma prosesi indi əsas prioritetlərdən biridir. Bu mənada, ötən ay dörd bankla bağlı məlum qərar da təsadüfi sayılmır.**

# Azərbaycanın bank sektoru tam sağlamlaşdırılır




Bir daha xatırladqq ki, Mərkəzi Bankın İdarə Heyətinin 2020-ci il 27 aprel tarixli qərarları ilə "AtaBank" ASC, "AGBank" ASC, "NBCBank" ASC və "Amrah Bank" ASC-yə müvəqqəti inzibatçılar təyin olunub. Bundan bir gün sonra isə həmin banklardan ikisinin - "AtaBank" ASC-nin və "Amrah Bank" ASC-nin lisenziyaları həmin tarixdən etibarən ləğv edilib. Digər iki bankın da durumu yaxşı deyil. Belə ki, həm "NBCBank", həm də "AGBank" mənfi kapitala malikdir. Elə Mərkəzi Bankın sədri Elman Rüstəmov da bu banklarda ürəkaçan durumun olmadığını vurğulayır:"AGBank" və bank "NBCBank"da vəziyyət bizə qismən məlum idi, lakin bəzi məqamlara aydınlıq gətirməli idik, bu səbəbdən həmin banklarda müvəqqəti inzibatçılar təyin etdik. Lakin qeyd etmək lazımdır ki, banklarda vəziyyət heç də ürəkaçan deyil". Onun sözlərinə görə, "AGBank"da kapital mənfi 145 milyon manat, "NBCBank"da mənfi 23 milyon manat təşkil edir."AGBank"da problemli kreditlərin xüsusi çəkisi 54%, "NBCBank"da 32%, ümumi əmanətlər 280 milyon manat həcmində qiymətləndirilir. Bu bankların da bağlanması istisnalıq təşkil etmir. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, bank sektorunda sağlamlaşdırma prosesi 2020-ci ildə prioritetlərdən biridir. Məsələnin bu tərəfinə nəzər salan Elman Rüstəmov qeyd edir:"Toksik aktivlər və zəif banklar maliyyə-bank sistemi üçün risqlər yaradır, xüsusilə bu gün dünyadakı mürəkkəb makroiqtisadi mühitdə. Bundan əlavə, bu həmçinin banklarda əmanətçilərə güclü sosial zərbədir. Bu səbəbdən biz həmin yığılan problemləri həll edirik.Sağlamlaşdırma bank sektorunun mövqelərini yaxşılaşdıracaq".

Yaranmış durumda ekspertlər hesab edir ki, zəif və təqdim etdiyi məlumatlar reallıqdan uzaq olan bankların fəaliyyətinə son verilməsi vacibdir. İqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov bu xüsusda bildirir:"Bankların təqdim etdiyi hesabatlarla real göstəriciləri üst-üstə düşmür. Yəni banklar faktiki olaraq real göstəricilərini hesabatlarında qeyd etmirlər. Bu isə həm ictimaiyyəti, həm də dövləti aldatmaq deməkdir". Ekspert vurğulayıb ki, banklar hesabatlarında vəziyyətlərinin yaxşı olduğunu göstərsələr də, Mərkəzi Bankın araşdırmaları ilə bunun heç də belə olmadığı ortaya çıxdı:"Bu və bu kimi hallar bankların təqdim olunan hesabatlarına nəzarət mexanizminin yaradılması məsələsini aktuallaşdırır. Biz güman edirik ki, Mərkəzi Bank məsələ ilə bağlı əsaslı tədbirlər görəcək. Burada digər məsələ də bankların hesabatlarında yanlış məlumat təqdim etməklə qanunvericiliyi pozmasıdır". V.Bayramov bağlanmaq risqi olan banklardan da danışıb:"Konkret hansı bankların bağlanacağını demək çətindir. Digər tərəfdən, bu, Mərkəzi Bankın yeni qiymətləndirməsindən asılı olacaq. Təbii ki, sistem əhəmiyyətli banklarda vəziyyət qənaətbəxşdir. Həmin bankların maliyyə problemləri yoxdur. Lakin sistem əhəmiyyətli olmayan banklarda, düşünürəm ki, Mərkəzi Bank tərəfindən yeni qiymətləndirmənin aparılması düzgün olacaq". Ekspert vurğulayıb ki, Mərkəzi Bank önümüzdəki aylarda banklarla bağlı yenidən qiymətləndirmə aparacaq və bundan sonra bankların taleyi haqda konkret nəsə demək olar.

Burada onu da qeyd etmək lazımdır ki, hökumət bank sektorunda daha güclülərin qalması və onlar arasında da sağlam rəqabətin olması istiqamətində də mühüm addımlar atır. Eləcə də banka borcu olan vətəndaşlara da yenə dövlət tərəfində zəruri yardımlar göstərlir. Bu xüsisda dəstək tədbirlərinin ən mühüm istiqamətlərindən biri 2020-ci il martın 1-nə keyfiyyəti qənaətbəxş olan və dövlət fondlarının vəsaitləri hesabına verilmiş kreditlərin və İpoteka və Kredit Zəmanət Fondunun kreditlərinin güzəştli şərtlərlə əvəz olunmasıdır. Həmçinin fiziki şəxslər və sahibkarlıq subyektləri üzrə kredit öhdəliklərinin tam və ya qismən gecikdirilməsi halında borcludan əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması banklara tövsiyə edilib. Təbii ki, bu tədbirlər vətəndaşların borc yükünün azalmasına müsbət təsir edəcək. Burada bir məqamı xüsusi qeyd edək ki, sahibkarlıq subyektləri üzrə bu tədbirin icrası, yəni kredit faizlərinin subsidiyalaşdırılması real sektorun kreditlərə çıxış imkanlarına müsbət təsir göstərəcək. Hazırda ölkədə real sektorun maliyyələşdirilməsində ticarət və xidmət sektoru, sənaye, nəqliyyat və rabitə sektorları nisbətən yüksək xüsusi çəkiyə malikdir. İstehlak kreditləri üzrə əlavə kapital tələblərinin 2021-ci il yanvarın 1-dək təxirə salınması da mühüm tədbir sayılır. Digər tərəfdən məlumdur ki, Mərkəzi Bank karantin rejimi müddətində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə kredit təşkilatlarına requlyativ tətilin verilməsi barədə qərar qəbul edib. Bu qərarda diqqət çəkən məsələlərdən biri banklara kredit ödənişlərinin gecikdirilməsinə görə sentyabrın 30-na qədər borcludan cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmamasının kredit təşkilatlarına tövsiyə edilməsi məsələsi olub. Bununla bağlı "Azərbaycan Banklar Assosiasiyası" (ABA) İctimai Birliyinin sədri Zakir Nuriyev bildirib ki, banklar irəli sürülən bütün tövsiyələri yerinə yetirir: "Nazirlər Kabinetinin təsdiq etdiyi "Tədbirlər Planı"nda fiziki şəxslərlə bağlı İpoteka və Kredit Zəmanət Fondu tərəfindən pandemiyadan zərər çəkən sahələrdə çalışan insanlara verilən ipoteka kreditlərinin Fondun razılığı və bankın müştərilərinin müraciəti əsasında vaxtının uzadılması və sentyabra qədər cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması qeyd olunub. Biznes üzrə 1 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və kredit faizləri dövlət tərəfindən subsidiyalaşdırılacaq kreditlərin restrukturizasiyası, Sahibkarlığın İnkişaf Fondu və Aqrar Kredit və İnkişaf Agentliyinin xəttilə verilmiş kreditlərin onların razılığı ilə və həmin fondların qaydalarında dəyişiklik edilməklə restrukturizasiya edilməsinə imkan yaradılması və 30 sentyabra kimi bu kreditlərin restrukturizasiya müddətinin həyata keçirilməsi nəzərdə tutulub. Bütün yerdə qalan müştərilər üçün isə yalnız cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması tövsiyə edilib. Bir sözlə, tədbirlər planında nə yazılıbsa, biz onların hamısını icra edir və orda qeyd edilən tövsiyələrin hər birinə əməl edirik. Heç bir şəkildə demək olmaz ki, tədbirlər planında nəzərdə tutulmuş hər hansı bir tədbir banklar tərəfindən həyata keçirilmir.

**Bu istiqamətdə Azərbaycan Mərkəzi Bankının qərarı çıxan kimi biz məsələni banklarla müzakirə etdik. Bütün banklar yekdil şəkildə tədbirlər planında nəzərdə tutulan bu tövsiyələrin icra edilməsini qəbul etdiklərini bildirdilər. Orada hansı tədbirlər nəzərdə tutulubsa biz onların hamısını edirik. Bundan başqa, banklar müştərilərin müraciəti əsasında pandemiyadan təsirlənən sahələrlə bağlı məsələlərə də baxırlar. Bu fərdi yanaşmalar hər zaman olub, bu gün də var və hər zaman da olacaq". Beləliklə, müvafiq dəstək proqramı, Mərkəzi Bankın bir sıra banklara müvəqqəti inzibatçılar təyin etməklə onları xüsusi nəzarətə götürməsi maliyyə bazarlarının sabit inkişafının dəstəklənməsi baxımından vacib sayılır.**

***Ramil QULİYEV***

№ 75 (4206) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

9 MAY 2020-ci il

www.baki-xeber.com

# İqlimi xilas etmək üçün yeni üsul tapıldı

**İsveç mühəndisləri iqlimi xilas etmək üçün yeni üsul tapıblar.**

Ağacdan 30 metr külək generatorları qurmağa başlayıblar ki, bu da atmosferə istixana qazı tullantılarını azaldır. "Milli.Az" xəbər verir ki, ötən həftə İsveçin mühəndis və tikinti şirkəti "Modvion" iyneyarpaqlı ağacdan hazırlanan külək yaradan qülləni təqdim edib. Külək generatoru görünüş və keyfiyyət baxımından polad analoqlarından fərqlənmir, lakin istixana qazları daha az istehsal olunur. Adi külək generatorları poladla işləyərkən qalıq yanacaq istifadə olunur, bu dünyadakı bütün hava tullantılarının təxminən 7 faizini təşkil edir.

"Modvion" şirkətinin baş direktoru Otto Lundman iddia edir ki, külək enerjisi vasitəsilə karbon qazı tullantıları sıfıra endirilə bilər: "Genişmiqyaslı tikintidə karbon lifindən istifadə etmək təbiətin bir hədiyyəsidir". Gələcəkdə "Modvion" daha çox enerji istehsal etmək üçün beşqat hündür qüllələr tikmək niyyətindədir. Belə ki, Skandinaviya bölgəsində yerləşən böyük külək ferması olan "Rabbalshede Kraft"dan hündürlüyü 150 metr olan 10 qüllə almaq planlaşdırılır.

Mars meteoritində azot tərkibli orqanik material aşkar edilib.

"Ted.az" bildirir ki, karbonatlı minerallar adətən çöküntüyə qrunt sularından qarışdığından, bu kəşf Marsın 4 milyard il əvvəl həyatın yaranması üçün əlverişli olduğunu ehtimal etməyə əsas verir. Marsın öyrənilməsində Antarktidada 1984-cü ildə tapılmış Allan Hills (ALH) 84001 meteoriti xüsusilə əhəmiyyətlidir. Yeni tədqiqat işində alimlər qeyd olunan meteoriti tədqiq edərkən karbonatlarda azotun miqdarının öyrənilməsi üçün bundan öncə aparılan araşdırmalardan fərqli olaraq ən müasir analitik metodlardan istifadə ediblər.

Bu tapıntılar göstərir ki, Mars "Qırmızı planet" olana qədər onda orqanik azot mövcud olub. Erkən Marsın rütubətli və orqanik maddələrlə zəngin olması güman olunur.

## Bu göyərti təzyiqi salır...



**Səbzələrdə olan falavonoid kversetin yüksək təzyiqi salmağa qadirdir.**

"Medicina.az" bildirir ki, Çin Tibb Universitetinin bir qrup alimi yeni elmi tədqiqatın nəticəsi olaraq sübut edib ki, göyərtilərdən ispanaq təzyiqi sala bilir. Belə ki, təcrübə zamanı 900 nəfər xəstəyə kversetinlə zəngin bu bitki tərkibli qidalar verilib: alma, üzüm, qarağat, kələm, pomidor, ispanaq, çay.

Onlar 4 həftə boyu qrup şəklində bu qidaları qəbul ediblər. Məlum olub ki, kversetin yuxarı təzyiqi 3,09 ml, aşağı təzyiqi isə 2,86 ml salır. Arterial təzyiqin 10 ml azalması ürək infarktı və insultu 50% azaldır. Bu təcrübənin sonunda daha çox ispanağın təzyiqi yaxşı saldığı sübut olunub. Ona görə yüksək təzyiqi olanlara hər gün ispanaq yemək tövsiyə olunur.

## Elan

Şəki rayonu Turan qəsəbə sakini Məmmədov Mikayıl Xammət oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 037 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı və JN-92 A saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

---

Şəki şəhər sakini Əliyev Malik Paşa oğlunun adına verilmiş 7946/2649 saylı qeydiyyat vəsiqəsi itdiyindən etibarsız hesab edilir.

---

**"Bərdə Broyler" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə**

22 iyun 2020-ci il tarixində, saat 10:00-da Bərdə rayonu, 866 saylı yeni qəsəbə, Qalayçılar klubunda Cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcək.

Səhmdarların növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilib.

1."Bərdə Broyler" ASC-nin 2019-cu ilin yekunlarına dair maliyyə hesabatlarının təsdiq olunması məsələsi haqqında. 2."Bərdə Broyler" ASC tərəfindən 2019-cu ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi məsələsi haqqında. 3.Aidiyyəti şəxslə əqdin bağlanılması. 4.Digər məsələlər.

## Baş icraçı direktor Q.Panke: "Nar" koronavirusla mübarizə məqsədilə təxirəsalınmaz addımlar atır"

**"Koronavirus pandemiyası ilə mübarizənin aparıldığı bu həssas dövrdə "Nar" üçün ən vacib məsələ 2,3 milyon abunəçisinin xüsusi ehtiyaclarının nəzərə alınmasıdır. Mobil operator olaraq virusla mübarizə üçün təxirəsalınmaz addımlar atırıq".**

Bunu "Nar"ın Baş icraçı direktoru Qunnar Panke xüsusi karantin rejimi dövründə müştərilərinə təqdim etdikləri xidmətlər barədə İTV telekanalına müsahibəsində deyib. Q. Panke qeyd edib ki, müştərilərə fasiləsiz xidmətlər göstərmək üçün gücləndirilmiş iş rejimində çalışırlar. Abunəçilərin sağlamlığının mobil operator üçün böyük əhəmiyyət daşıdığını bildirən Baş icraçı direktor xüsusi karantin rejimi dövründə müştərilər üçün özəl xidmətlər yaratdıqlarını bildirib.

nar

Gəlin birlikdə böyüyək

Q.Panke müştərilərin evdə qalması üçün "Nar"ın təqdim etdiyi onlayn və səyyar xidmətlər, eləcə də şəbəkəsi haqqında da məlumat verib: "Bu dövrdə bizim qarşımızda duran iki məsələ var idi. Birincisi, şəbəkəmizə xüsusi diqqət ayırdıq. Çünki karantin rejimində insanların daim əlaqədə qalması çox vacibdir. Ona görə də 24/7 rejimində şəbəkəyə nəzarət edən komandalarımız gücləndirilmiş rejimdə işləməyə başladı. İkincisi isə müştəri xidmətlərimizi tam hazır vəziyyətə gətirdik ki, karantin dövründə abunəçilərimiz günün 24 saatı, həftənin 7 günü istənilən vaxt bizimlə əlaqə saxlaya bilsinlər.

Bundan başqa, koronavirus pandemiyasının mobil operatorun biznesinə təsiri barədə də danışan Q.Panke vurğulayıb ki, mart ayının ikinci yarısından etibarən gəlirlərin azaldığı müşahidə edilir. Çünki insanlar evdə olarkən mobil xidmətlərdən deyil, sabit internet və telefon şəbəkəsindən istifadə etməyə üstünlük verirlər. Bunlara baxmayaraq, "Nar" abunəçilərinə təqdim etdiyi sərfəli qiymətlərə sadiq qalır.

Qeyd edək ki, "Nar"ın Baş icraçı direktoru Qunnar Pankenin İTV telekanalına müsahibəsinin videosuna aşağıdakı linkdə baxmaq olar: https://youtu.be/aQ30pivBTU4





**Qoç** - İşgüzar məsələləri müzakirə etmək olar. Özünə inam, inadcıllıq, əzmkarlıq nümayiş etdirənlər danışıqlarda uğur qazanacaqlar. Güclü şəxsiyyətlər heç bir təzyiqlə üzləşməyəcəklər.



**Buğa** - Şəxsi münasibətlərdəki ahəngdarlığa isə yağışdan sonra göbələk kimi artan illüziyalar mane olur. Nə qədər çox fantaziyaya qapılsanız, reallığa qayıtmaq bir o qədər çətin olacaq.



**Əkizlər** - Səhəri gərgin işə sərf etməli olacaqsınız. Problem və çətinliklər boğaza qədərdir, amma siz onların öhdəsindən gələcəksiniz. Öz vaxtınızdan maksimal dərəcədə səmərəli istifadə edə biləcəksiniz.



**Xərçəng** - Vacib görüş və işlərinizi günün ortasına planlaşdırın. Çalışın, diqqətinizi cəmləyəsiniz, ideyalarınızı daha gözəl təqdimatla çatdırasınız, sizə hazırlanan tələləri vaxtında görə biləsiniz.



**Şir** - Kommersiya fəaliyyəti, sövdələşmələr üçün yaxşıdır. Düzdür, bu vaxt sizin daha çox pullar barədə düşünməniz sizi yaxşı tanımayan adamlarda düzgün olmayan təəssürat yarada bilər: sizi praqmatik, məncil biri kimi görəcəklər.



**Qız** - Şəxsi münasibətlərdə isə vəziyyət bir qədər başqadır. İstənilən məsələyə praqmatik yanaşmağınız yaxınlarınızı təəccübləndirir və qıcıqlandırır. Ətrafınızdakıların həyəcanları sizi qətiyyən maraqlandırmır, istəmədən qəddarlıq edirsiniz.



**Tərəzi** - İş üçün çox uğurlu gündür. Ötən həftənin problemlərini uğurla həll edir və yeni planların reallaşdırılmasına başlayırsınız. Özünüzə tərəfdaş və həmfikir tapmaq elə də çətin deyil, həmçinin onlarla işləmək də xoş olacaq.



**Əqrəb** - Günün başlanğıcı çox mürəkkəb olacaq. Emosional fon sabit deyil, siz vurnuxur, özünüzü ora-bura çırpırsınız. Amma xoşbəxtlikdən, bu hal uzun sürməyəcək, siz tez sakitləşəcək, özünüzü ələ alacaqsınız.



**Oxatan** - Əvvəldən düşündüyünüz planlara riayət etmək çətindir, onları yenidən gözdən keçirib, uyğunlaşmaq lazım gəlir. Axşam isə böyük güc sərf etmədən bütün problemlərinizi həll edə biləcəksiniz.



**Oğlaq** - Xoşagəlməz hadisə baş verə bilər. Günahkar isə nahaqdan etibar etdiyiniz bir qadın olacaq. Axşama doğru isə vəziyyət düzələcək və yaxınlarınızın əhatəsində gözəl vaxt keçirəcəksiniz.



**Dolça** - Sakit olun, təmkininizi pozmayın! Gün elə də yaxşı başlamır. Ancaq hər şey sizdən asılıdır. Əsas məsələ budur ki, həmkarlarınız və iş ortaqlarınızla dil tapa biləsiniz. Nə edirsinizedin, amma çalışın belə olsun.



**Balıqlar** - Günün əvvəlində pis xəbər ala bilərsiniz, şərait çox gərgin olacaq. Özünüz də istəmədən və yersiz olaraq hamının diqqət mərkəzinə düşəcəksiniz. Baş verənlərdən narazılığınızı gizlətmək çətindir, amma məcbursunuz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Daşınan elektronika üçün "nəfəs alan ağıllı material" hazırlanıb

**Şimali Karolina Universitetinin tədqiqatçıları istənilən elektronika qurğusuna quraşdırıla bilən nazik elastik material hazırlayıblar.**

Yeni materialın özəlliklərindən biri onun havakeçirmə qabiliyyətidir ki, bu da dəri ilə uzunmüddətli kontakt vaxtı ondan rahat şəkildə istifadə etməyə imkan verir.

Yeni texnoloji hazırlama tibb sahəsində geniş tətbiq oluna bilər.

"İctnews.az" bildirir ki, tədqiqatçılar innovativ materialdan hazırlanmış qoldan kontroller kimi istifadə edərək onun daşınan qurğular bazarında tətbiq imkanını nümayiş etdiriblər. Həmçinin, yeniliyin biotibb sahəsində faydalı olacağı güman edilir.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.